# NİYƏ ÖZÜNÜ ALDADIRSAN?



**HARUN YƏHYA**
**(ADNAN OKTAR)**

Dünya həyatında hər insan doğulur, böyüyür, təlim-tərbiyə alır və iş həyatına daxil olur. Evlənir, uşaq sahibi olur, pul və etibar qazanmaq üçün çalışır, sonra uşaqlarını evləndirib nəvə sahibi olur. Bunların hamısı, əlbəttə ki, lazımlı işlərdir. Ancaq din əxlaqından uzaq cəmiyyətlərdə yaşayan insanlar sadəcə bunlara bənzər bir neçə dünyəvi məqsəd üçün yaşayırlar. Halbuki, dünya həyatı çox qısadır və insanın dünyada yaşamasının əsl məqsədi Allah`ın rizasını, rəhmətini və cənnətini qazanmaq üçün çalışmaqdır. Bu həqiqəti unudub sadəcə dünyəvi işlərlə vaxtını keçirənlər böyük səhvə yol verirlər və özlərini aldadırlar.

Hər insan heç gözləmədiyi bir anda həyatın ən böyük və qaçılmaz həqiqətlərindən biri ilə qarşılaşacaqdır. Ölüm vaxtı gəlmişdir. Çevrəsində bir çox insanın ölümünə şahid olmuş, buna baxmayaraq, öz ölümünü həmişə uzaq görmüşdür. Dünya üçün var gücü ilə çalışıb ölümdən sonrası üçün hazırlıq görməmişdir. Özünü aldadan insan ölüm kimi qəti həqiqətlərdən və Allah`a qarşı məsuliyyətlərdən qaçacağını zənn edir. Halbuki, özünü aldatmaq insanın qurtuluşu üçün çarə deyil, əksinə, insanı sonu cəhənnəmdə bitən bir yola sürükləyir...

Bu kitabda bəzi insanların həyatları boyu özlərini aldatdıqları mövzular və görməzlikdən gəldikləri həqiqətlər barədə söz açılır və bu yolun insanı hansı zərərə apardığı barədə bəhs olunur.



**MÜƏLLİF HAQQINDA:** Harun Yəhya imzasından istifadə edən Adnan Oktar 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.

Müəllifin bütün əsərlərindəki ortaq məqsəd Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allah'ın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və batil əməllərini nümayiş etdirməkdir. Belə ki, müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur. Harun Yəhya Külliyyatı, Allah'ın izni ilə XXI əsrdə dünyadakı insanları Quranda tərif edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa səbəb olacaqdır.


بسم الله الرحمن الرحيم
الله
رسول
محمد




# NİYƏ ÖZÜNÜ ALDADIRSAN?

Harun Yəhya (Adnan Oktar)



# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s.ə.v) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allah'ın son kitabı və son sözü, Peyğəmbərimizin (s.ə.v) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.



Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allah'ın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq,

uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allah'ın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allah'ın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# OXUCUYA

- Bu kitabda və digər fəaliyyətlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə fəlsəfənin əsasını təşkil etməsidir. Yaradılışı və dolayısilə Allah'ın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Ona görə bu nəzəriyyənin yalan olduğunu insanlara göstərmək çox mühüm imani vəzifədir. Bu mühüm xidmətin bütün insanlara çatdırılması isə vacibdir. Bəzi oxucularımızın bəlkə bircə kitabımızı da oxuma imkanı yoxdur. Bu səbəbdən hər kitabımızda bu mövzuya xülasə şəklində də olsa bir bölmə ayrılmışdır.
- Kitabların məzmunu ilə bağlı digər cəhəti də nəzərə çatdırmaq lazımdır. Müəllifin bütün kitablarında imani mövzular, Quran ayələri işığında izah edilir, insanlar Allah'ın ayələrini öyrənməyə və yaşamağa dəvət olunurlar. Allah'ın ayələri ilə bağlı bütün mövzular oxuyanın ağlında heç bir şübhə və ya sual doğurmayacaq şəkildə açıqlanır.
- Buradakı izahlarda istifadə edilən səmimi, sadə və axıcı üslub isə kitabların hər kəs tərəfindən asanlıqla başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsdə oxunan kitablar" ifadəsinə tamamilə uyğun gəlir. Dini qətiyyətlə rədd edən insanlar belə bu kitablarda izah edilən həqiqətlərdən təsirlənir və izah edilənlərin doğruluğunu inkar etmirlər.
- Bu kitab və müəllifin digər əsərləri oxucular tərəfindən fərdi şəkildə olduğu kimi, qarşılıqlı söhbət mühitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun kitabları birlikdə oxumaları, mövzu ilə bağlı öz fikir və təcrübələrini bir-birləri ilə paylaşmaları baxımından faydalı olar.
- Bununla yanaşı sadəcə Allah rizası üçün yazılmış bu kitabların tanınmasına və oxunmasına kömək etmək də böyük xidmət olar. Çünki müəllifin bütün kitablarında sübut və inandırma çox güclüdür. Bu səbəbdən dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasına sövq etməkdir.
- Kitabların arxasına müəllifin digər əsərlərinin təqdimatının əlavə edilməsinin isə mühüm səbəbləri var. Bu sayədə kitabı əlinə alan şəxs yuxarıda bəhs etdiyimiz xüsusiyyətləri daşıyan və oxumaqdan zövq aldığını ümid etdiyimiz bu kitabla eyni vəsflərə malik olan daha bir çox əsər olduğunu görəcəkdir. İmani və siyasi mövzularda faydalanacağı zəngin mənbə toplusunun mövcud olduğuna şahid olacaqdır.
- Bu əsərlərdə digər bəzi əsərlərdə görünən, müəllifin şəxsi qənaətlərinə, şübhəli mənbələrə əsaslanan izahlara, müqəddəs şeylərə qarşı ədəbə və hörmətə diqqət verilməyən üslublara, narahatlıq verən şübhəli və ümidsizliyə sürükləyən izahlara rast gələ bilməzsiniz.

Bu kitabda istifadə edilən ayələr Ə. Musayevin tərcümə etdiyi
Qurani-kərim kitabından götürülmüşdür.

www.harunyahya.org - www.harunyahya.net - www.harunyahya.az

# İÇİNDƏKİLƏR

GİRİŞ ....................................................................................................8

YARADILIŞ MƏQSƏDİNİ UNUTMAMAQ ..............................12

ÖZÜNÜ ALDATMADAN SƏMİMİ DİNDAR OLMAQ..........19

İNSANLAR HANSI YALANLARLA
ÖZLƏRİNİ ALDADIRLAR? ....................................................38

ÖZÜNÜ ALDADANLARIN SONU ..........................................60

ÖZÜNÜ ALDATMAĞIN YERİNƏ SƏMİMİYYƏT .................63

ƏLAVƏ BÖLMƏ: TƏKAMÜL YALANI ..................................65

# GİRİŞ

Din əxlaqından uzaq yaşayan cəmiyyətlərdə insanların böyük hissəsinin həyatdakı məqsədləri bir-birinə bənzəyir. İlk baxışda bir-birlərindən fərqli görünsələr də, əslində, təməldə eynidirlər. Çünki həyat tərzləri dəyişsə də, dünyaya aid istəkləri, bağlılıqları, maraqları, planları, idealları və əməlləri çox oxşardır.

İnsan xarakterinin formalaşdığı ilk illər uşaqlıq illəridir. Bu illərdə uşaqların olduqca məsuliyyətsiz və dünyadan xəbərsiz həyatı olur. Sonra məktəb həyatı və gənclik illəri gəlir. Bu illərdə məqsəd çoxlu dostlar tapmaq, məktəbdə məşhur olmaq, dəbə uyğun paltarlar geyinmək, ətrafındakılara özünü göstərmək kimi klassik istəklərlə məhdud olur. Daha sonra məktəb illəri sona çatır və iş həyatı başlayır. İş həyatında insan öz peşəsində yüksəlməyə, daha çox pul qazanmağa, daha üstün mövqeyə yiyələnməyə çalışır. Buna görə, bütün vaxtından və imkanlarından istifadə edir. Həmçinin yaxşı insan tapıb evlənmək və oğul-uşaq sahibi olmaq üçün səy göstərir. Dünyadakı ən əhəmiyyətli hadisənin xoşbəxt ailə qurmaq olduğunu düşünür. Bir sözlə, insan doğulur, böyüyür, təhsil alır, iş həyatına başlayır, evlənir, övlad sahibi olur, bacardığı qədər pul və etibar qazanmağa çalışır, sonra uşaqlarını evləndirir, nəvə-nəticə sahibi olur… Beləliklə, bir neçə dünyəvi məqsəd və idealla yaşayır. Əlbəttə ki, bunların hamısı dünya həyatında vacib olan və müsəlmanların şövqlə yerinə yetir-

dikləri işlərdir, ancaq hər bir insan əsl məqsədini unutmadan, dünyada imtahan olunduğunu, dünyanın axirət üçün hazırlıq yeri olduğunu bilərək hərəkət etməklə məsuliyyət daşıyır.

Allah üstün güc sahibi yaradıcımızdır və Onun qüdrəti qarşısında hər bir insan qulluq vəzifəsini qüsursuz olaraq yerinə yetirməlidir. İman sahibi olan insan ibadətlərinə göstərdiyi diqqətinə görə özünü bəlli edir. Allah`ın fərz buyurduğu zəkat, beş vaxt namaz, dəstəmaz və oruc kimi ibadətlərini həyatı boyunca şövqlə davam etdirir. İbni Ömərdən (r.ə.) rəvayət edildiyinə görə, Rəsulullah səllallahu əleyhi və səlləm belə buyurmuşdur:

*"İslam beş təməl üzərində bina edilmişdir: Allah`dan başqa ilah olmadığına və Muhəmmədin Allah`ın elçisi olduğuna şahidlik etmək. Namazı düzgün qılmaq, zəkatı haqqı ilə vermək, Allah`ın evi Kəbəni həcc etmək və Ramazan orucunu tutmaq". (Buxari, İman 1, 2, Təfsiri-surə (2) 30; Müslim, İman 19-22. Bundan əlavə, bax: Tirmizi, İman 3; Nəsai, İman 13)*

İllər sürətlə keçir və insan heç gözləmədiyi anda həyatın ən böyük və qaçılmaz həqiqətlərindən biri ilə qarşılaşır. Ölüm vaxtı gəlmişdir; bəlkə 50, bəlkə 60 və ya ən çox 70 yaşında bu dünyadan köçür.

O ana qədər ölümü heç düşünməmiş və ya çox az düşünmüşdür. Ətrafında çoxlu sayda insanın ölümünə şahid olmuş, amma öz ölümünü həmişə uzaq görmüşdür. Həyatı boyu ölümü düşünməyi belə ağlından keçirməmişdir; çünki dünyəvi maraqlara qapılmışdır. Buna görə, Allah`ın rizası, cənnət, cəhənnəm kimi mövzulardan çox uzaqdır. Bu həqiqətlər üzərində düşünərək həyatının əsl məqsədini qavraya bilməmişdir. Dünyada yaşadığı dövrdə bir çox hədəfləri, planları və mənfəətləri olmuşdur. Dünya üçün çox çalışmışdır, amma ölümdən sonrası üçün heç bir hazırlığı yoxdur.

Belə bir vəziyyətdə heç gözləmədiyi anda yuxudan oyanırmış

kimi hazırlıqsız və çaşqın halda ölümlə qarşılaşır. Geri dönmək istəyir, yalvarır. Amma artıq çox gecdir. Allah belə insanların vəziyyətini "Səcdə" surəsində belə xəbər verir:

**De: "Sizə müvəkkil olan ölüm mələyi canınızı alacaqdır. Sonra da Rəbbinizin hüzuruna qaytarılacaqsınız!" Kaş günahları öz Rəbbinin hüzurunda başlarını aşağı dikib: "Ey Rəbbimiz! gördük, eşitdik. İndi bizi qaytar ki, yaxşı iş görək. Biz tam yəqinliklə inandıq!" – deyəndə görəydin! ("Səcdə" surəsi, 11-12)**

Bəs insan bu vəziyyətə necə düşür? Əsla düzəlməsi mümkün olmayan peşmançılığa düşənə qədər bu həqiqətlərdən necə qaçır? Dünyada yaşama məqsədini necə görməzlikdən gəlir?

İnsanların bu cür həyati əhəmiyyətli həqiqətləri görməzlikdən gəlməsi və bunu edərkən də özlərini ovutmaq üçün istifadə etdikləri bəzi müdafiə mexanizmləri vardır. Bunlardan biri və bəlkə də ən təsirlisi insanın özünü aldatmasıdır. Özünü aldadan insan başda ölüm olmaqla, bütün həqiqət və məsuliyyətlərdən qaça biləcəyini zənn edir. Halbuki, özünü aldatmaq insanın qurtuluşu üçün çarə deyil. Əksinə, dünyada yaşamasının əsl məqsədini görməməzliyə vurmaq insanı sonu cəhənnəmlə nəticələnən çıxılmaz yola aparır. Elə isə insan həqiqətləri görməzlikdən gəlib özünü aldatmağı bir kənara qoymalı və Allah`ın dünyada ona verdiyi vaxtı ən gözəl şəkildə qiymətləndirməlidir.

İndi bütün bunları özünüz üçün düşünün. Bu günə qədər yuxarıda təsvir etdiyimiz kimi bir həyatınız ola bilər. Siz də həyatınızın əsl məqsədi üzərində düşünməmiş, sizi yaratmış olan Allah`a qarşı məsuliyyətlərinizi unutmuş, özünüzü aldadaraq yaşamış ola bilərsiniz. Əgər bu vəziyyətdə ikən bir anda ölüm və ardınca da əbədi peşmançılıqla qarşılaşmaq istəmirsinizsə, burada izah edilən həqiqətləri ciddi şəkildə düşünərək oxumalısınız. Çünki bu kitabda insanların

həyatı boyu özlərini aldatdıqları mövzular açıqlanır və görməzlikdən gəldikləri əsl həqiqətlər bildirilir.

Unutmayın! Ölüm anında oyanmaq və həqiqətləri görmək insana fayda verməyəcək. Allah bu barədə insanları qəti şəkildə xəbərdar edir:

> **Birinizin ölümü çatıb: "Ey Rəbbim! Mənə bir az möhlət versəydin, sədəqə verib salehlərdən olardım!" deməmişdən əvvəl sizə verdiyim ruzidən xərcləyin. Və Allah əcəli çatan heç kəsə möhlət verməz. Allah sizin nə etdiklərinizdən xəbərdardır! ("Munafiqun" surəsi, 10-11)**

# YARADILIŞ MƏQSƏDİNİ UNUTMAMAQ

Küçədəsinizsə, ətrafınıza və evdəsinizsə, pəncərədən baxın. Ağaclar, çiçəklər, təpələr, səma, insanlar və digər canlılar… Dünyada bu an görə bilmədiyiniz digər yerləri də düşünün; dənizlər, göllər, dağlar, ətrafınızda gördüklərinizdən başqa milyardlarla insan, həyatda heç qarşılaşmadığınız milyonlarla növ canlı… Son olaraq da dünyadan kənara çıxın və kainatı düşünün; içində yüz milyardlarla ulduz olan yüz milyardlarla qalaktika, günəş, planetlər, peyklər, kometalar və digər göy cisimlərinin olduğu ucsuz-bucaqsız məkan…

İndi səmimi olaraq vicdanınızın səsinə qulaq asın və düşünün. Bütün bu saydıqlarımız niyə və necə var olmuşdur? Canlı və cansız hər şey necə belə qüsursuz sistemdə və uyğunluq içində mövcud ola bilir? Kainatdakı bu ehtişamın, canlıların, xüsusilə də insanın sahib olduğu üstün xüsusiyyətlərdəki hikmət nədir? Bütün bunlar, ən əsası da yer üzündəki yeganə şüur sahibi varlıq olan insan hansı məqsədlər üçün dünyadadır?

Allah insanın həqiqi yaradılış məqsədini qullarına yol göstərici olaraq endirdiyi Quranda bildirmişdir. Bu məqsəd insanı yaradan və yaşadan Rəbbimizə qulluq etməkdir.

Allah bir ayəsində bu məqsədi belə bildirir:

**…insanları yalnız Mənə ibadət etsinlər deyə yaratdım. (“Zariyat” surəsi, 56)**

Budur dünya - yuxarıda saydığımız bütün detalları ilə dənizləri, gölləri, okeanları, çiçəkləri, ağacları, dağları, canlıları ilə birlikdə insanın bu qulluq vəzifəsini yerinə yetirib-yetirmədiyinin sınanması üçün Allah`ın xüsusi olaraq yaratdığı məkandır. Kainat, kainatdakı bütün sistemlər, ulduzlar, planetlər, göy cisimləri də insanın Rəbbimizin böyüklüyünü və sonsuz qüdrətini görməsi və Onun gücünü təqdir edə bilməsi üçün yaradılmışdır. Eyni şəkildə, insanın dünya həyatı boyu yaşadığı bütün hadisələr, olduğu bütün məkanlar, qarşılaşdığı bütün insanlar da insanın dünyada yaşadığı imtahanın bir hissəsidir. Allah insanın yaradılış və dünyada mövcud olma məqsədinin sınaq olduğunu bir ayədə belə xəbər verir:

**Həqiqətən, Biz insanı qarışıq bir nütfədən yaratdıq. Biz onu imtahana çəkəcəyik. Biz onu eşidən, görən yaratdıq. ("İnsan" surəsi, 2)**

Bu imtahan mühitində insan hər an Allah`ın əmr və qadağanlarına tabe olmaqla, Allah`ın razılığına uyğun hərəkət etməklə məsuldur. Bu məsuliyyəti rədd və ya inkar edən insanların sonsuza qədər cəhənnəm əzabı ilə qarşılıq görəcəyi Quranda bildirilmişdir. Çünki bu, Allah`ın verdiyi bütün nemətlərə qarşı böyük nankorluq və günahdır.

Buna baxmayaraq, insanların böyük əksəriyyəti qəribə laqeydlik içindədirlər. Həyatlarının əsl məqsədini unudaraq özlərinə tamamilə fərqli mövzular tapır, tamamilə fərqli məqsədlərlə yaşayırlar. Dünyaya aid əhəmiyyətsiz mövzu üçün aylarla, illərlə çalışıb səy göstərir, amma Allah`a qarşı olan məsuliyyətlərini ağıllarına belə gətirmək istəmirlər. Dünyadakı məsuliyyətsizliklərinin qarşılığı olaraq axirətdə cəhənnəmlə qarşılıq görəcəkləri ehtimalını isə heç düşünmürlər. Halbuki, yer üzündə bu gerçəklərdən xəbərsiz olduğunu söyləyə biləcək tək bir insan belə yoxdur. Allah hz. Adəmdən bu yana hər dövrdə insanlara Özünü tanıdan, onlara Özünə necə qulluq

edəcəklərini öyrədən kitablar endirmiş, xəbərdaredici elçilər göndərmişdir ki, insanlar "biz bunlardan xəbərsiz idik" kimi bəhanələr gətirə bilməsinlər. Bu həqiqət bir ayədə belə bildirilir:

**Biz peyğəmbərləri müjdə gətirən və əzabla qorxudan kimi göndərdik ki, daha insanlar üçün peyğəmbərlərdən sonra Allah`a qarşı bir bəhanə yeri qalmasın. Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir! ("Nisa" surəsi, 165)**

Allah`ın göndərdiyi elçilər və qatından endirdiyi kitablarla yanaşı, möminlərin insanlara etdikləri təbliğ də bu öyrətmə yollarından biridir. Tarix boyu bir çox imanlı insan digər insanları Allah`ın dininə dəvət etmiş, ətrafındakı insanlara cənnət və cəhənnəmin varlığını xatırladaraq onları hesab gününə qarşı xəbərdar edib qorxutmuşdur.

Bütün bunlarla yanaşı, fərz edək ki, bir insan həyatın əsl məqsədi haqqında heç bir şey eşitmədiyini, indiyə qədər heç kim tərəfindən xəbərdar edilmədiyini, Allah`ın kitabını bir dəfə belə oxumadığını söyləsin. Yenə də bu insan yuxarıda da ifadə etdiyimiz kimi, ətrafındakı varlıqları, qüsursuz sistemləri düşünərək bunların sonsuz qüdrət sahibi Yaradıcı tərəfindən mütləq bir məqsədlə yaradıldığını anlaya bilər. Özünün də yaradılmış varlıq olaraq Yaradıcıya qarşı məsuliyyətləri olduğunu qavraya bilər. Çünki Allah insanı ona doğrunu və həqiqəti söyləyən vicdanı ilə birlikdə yaratmışdır. Ətrafındakı varlıqları və hadisələri vicdanına müraciət edərək qiymətləndirən, yəni vicdanının səsini dinləyən insan bu həqiqətlərə çata bilər.

Belə ki, Quranda bizlərə bildirilən hz. İbrahim ilə əlaqədar bir əhvalat bu mövzuda çox gözəl və açıqlayıcı nümunədir:

**Beləcə, İbrahimə göylərin və yerin mülkünü göstərdik ki, tam qənaətlə inananlardan olsun! Gecə qaranlığı (onu) bürüdükdə o, bir ulduz görüb: "Bu, mənim Rəbbimdir!" - dedi. (Ulduz) batdıqda isə: "Mən batanları sevmirəm",**

**- söylədi. (Sonra) doğan ayı görüb: "Bu mənim Rəbbimdir!" – dedi. (Ay) batdıqda isə: "Doğrudan da, əgər Rəbbim məni doğru yola yönəltməsəydi, mən zəlalətə düşənlərdən olardım", - söylədi. (Daha sonra) doğan günəşi görüb: "Bu, mənim Rəbbimdir, bu, daha böyükdür!" – dedi. (Günəş) batdıqda isə dedi: "Ey camaatım, mən, həqiqətən, sizin Allah`a şərik qoşduqlarınızdan uzağam! Mən, həqiqətən, batildən haqqa tapınaraq üzümü göyləri və yeri yaradana çevirdim. Mən (Allah`a) şərik qoşanlardan deyiləm!" ("Ənam" surəsi, 75-79)**

Yuxarıdakı hekayədə göründüyü kimi, hz. İbrahim yalnız öz vicdanını dinləyərək göylərin və yerin yaradıcısı olan Allah`ın varlığını qavramışdır və yalnız Ona qulluq etməyin lazım olduğunu da anlamışdır. Bu nümunədən aydın olduğu kimi, insanın ətrafına vicdanına tabe olub baxması Allah`a qulluq etməyin lazım olduğunu anlaması üçün kifayətdir. Ancaq buna baxmayaraq, Allah insanlara lütf edir və yaranma məqsədlərini, Özünə necə qulluq etmələrinin lazım olduğunu ətraflı şəkildə xəbər verir. Şübhəsiz ki, bu, Allah`ın qullarına qarşı sonsuz şəfqət və mərhəmət sahibi olduğunun göstəricisi və insanları hidayətə və doğru yola yönəldən Hadi isminin təcəllisidir. Bundan əlavə, Allah insana bir çox vasitələrlə xatırlatmalar edir, həm də bu xatırlatmaları qavraya biləcəyi zamanı da verir.

Ancaq buna baxmayaraq, gördükləri dəlilləri və eşitdikləri gerçəkləri səmimi və vicdanlı şəkildə qiymətləndirməyən insanlar yer üzündə çoxluq təşkil edir. Üstəlik, bu insanlar sonsuz həyatlarında zərərə uğrayacaqları ilə xəbərdar edildikləri halda, bu həqiqətlərə qarşı tamamilə laqeyd olurlar.

Ətrafınıza bir daha baxın; uşaqlar, gənclər, kişilər, qadınlar, yaşlı insanlar... Çoxu sanki ölümlə və hesab günü ilə heç qarşılaşmayacaqmış kimi gündəlik işlərinə davam edir. Biri məktəbə gedir, biri iş

yerinə gecikməmək üçün sürətli addımlarla avtomobilinə doğru gedir, başqa biri axşam gələcək qonaqları üçün alış-veriş təlaşına qapılır, digəri isə bir neçə həftə sonra dünyaya gələcək nəvəsi üçün hazırlıq görür… Şübhəsiz ki, bütün bunlar hər bir insanın gündəlik həyatının təbii axışı içində yaşadıqlarıdır. Bu sadalananlar, əlbəttə, çox normal davranışlardır. Burada yanlış olan insanların bütün bunları qafil halda yaşamaları və Allah`ın özlərini əhatə etmiş olduğunu, ölümün sürətlə gəldiyini, Allah`ın hüzurunda Rəbbimizi unudaraq keçirdikləri illərin hesabını verəcəklərini heç düşünməmələridir.

Bəs insanlar bu qədər açıq həqiqətlərə, Allah`ın varlığının saysız dəlillərinə, Onun qarşısında öz acizliklərinin bir çox əlamətlərinə baxmayaraq, necə bu cür məsuliyyətsiz ola bilirlər? Başını quma basdıran dəvəquşu kimi necə həqiqətlərə gözlərini bağlaya bilirlər? Üstəlik, bu davranışlarının fəsadları onlara toxunacaq ikən…

Şübhəsiz ki, bu, insanların bir çoxunun etməli olduqlarını anlaya bilməmələrindən deyil, əksinə, vicdani olaraq doğrunu gördükləri halda, bilə-bilə özlərini aldatmalarından qaynaqlanır. Ona görə, aldatmaq deyirik ki, bir az əvvəl də bəhs etdiyimiz kimi, bir çox insanın bu mövzuda məlumatsızlıq və ya qavrayışsızlıq kimi problemi yoxdur. Problem bu insanların dünyaya həvəslə bağlılıqları, gizli və ya aşkar olaraq axirəti inkar etdiklərinə görə həqiqətlərə səmimi yanaşmamalarıdır. Allah Quranda bu cür insanların varlığından belə bəhs edir:

**Yer üzündə haqsız yerə təkəbbürlük edənləri ayələrimi anlamaqdan yayındıracağam. Onlar nə möcüzə görsələr, ona inanmazlar. Onlar haqq yolu görsələr, onu qəbul etməz, azğınlıq yolunu görsələr, onu özlərinə yol seçərlər. Bunun səbəbi isə onların ayələrimizi yalan hesab etmələri və ondan qafil olmalarıdır. Ayələrimizi və axirətə qovuşmağı doğru hesab etməyənlərin əməlləri puça çıxdı. Onlar**

**ancaq öz əməllərinin cəzasını çəkəcəklər! ("Əraf" surəsi, 146-147)**

**O kəslər ki, dünyanı axirətdən üstün tutur, Allah yolundan döndərir və o yolu əyri hala salmaq istəyirlər. Onlar azıb uzaq düşmüşlər. ("İbrahim" surəsi, 3)**

Allah başqa bir ayəsində də insanların özlərini aldadıb, həqiqətlərə gözlərini bağlayaraq qapıldıqları qəflət halını belə xəbər vermişdir:

**İnsanların haqq-hesab vaxtı yaxınlaşdı, onlar isə hələ də qəflət içindədirlər və üz döndərirlər. ("Ənbiya" surəsi, 1)**

İnsanın dünyada bütün etdiklərindən hesaba çəkiləcəyi, haqq-hesab günü ilə üz-üzə gələcəyi, şübhəsiz, açıq-aşkar bir həqiqətdir. Buna baxmayaraq, insanın qəflət içində olması və bundan xilas olmaq üçün səy göstərməməsi ən böyük ağılsızlıq və vicdansızlıqdır. Bu vicdansızlıq axirətdə Allah`ın diləməsi ilə davamlı qarşılıq görə bilər.

Əgər siz də özünüzü öz əllərinizlə əsla bərpa edilməyən peşmançılığa aparmaq istəmirsinizsə, diqqət edin! Əsla dünyəvi məqsədlərlə özünüzü aldadıb əyləndirməyin. Sizin bu dünyada olmağınızın gerçək məqsədi, nə yaxşı bir karyeraya yiyələnmək, nə çox zəngin olmaq, nə də yaxşı ailə qurub oğul-uşaq sahibi olmaqdır. Bunların heç biri əsl yaradılış məqsədiniz deyil. Ən böyük məqsəd Allah`a qulluq edərək Onun razılığını, rəhmətini və cənnətini qazanmaqdır. Əlbəttə, insan müvəffəqiyyətli iş adamı ola bilər, evlənib çoxlu uşağa, nəvəyə də sahib ola bilər və ya bunlara sahib olmaq üçün səy göstərə bilər. Amma bunları dünyaya aid yeganə məqsəd halına gətirməmək və bunları yaşayarkən də Allah`ın razılığını axtarmaq şərti ilə… Onsuz da dünyaya aid bu dəyərlərin hamısı insanın ölümü ilə birlikdə mənasını tamamilə itirəcək və insan etibarlı olan tək şeyin

Allah`a olan qulluğu olduğunu anlayacaq. Allah bir ayəsində bu həqiqətə belə diqqət çəkir:

**Sizi bizə yaxınlaşdıran nə var-dövlətiniz, nə də oğul-uşağınızdır. Yalnız iman gətirib yaxşı işlər görənlərin əməllərinə görə mükafatları qat-qat artıq olacaq və onlar cənnət otaqlarında əmin-amanlıq içində yaşayacaqlar. ("Səba" surəsi, 37)**

Allah başqa ayələrində dünyada malı və sahib olduğu imkanları ilə özünü aldadaraq yaradılış məqsədini unudan, bu səbəbdən, axirətdə böyük hüsrana uğrayan insanların vəziyyətindən belə bəhs edir:

**"Kaş o (ölüm) qəti olaydı! Mal-dövlətim mənə heç bir fayda vermədi. Mülküm də məhv olub getdi!.." Onu tutub qandallayın! Sonra da cəhənnəmə atın! ("Haqqə" surəsi, 27-31)**

# ÖZÜNÜ ALDATMADAN SƏMİMİ DİNDAR OLMAQ

Ətrafımızdakı varlıqların, dünyada olan canlıların və kainatdakı canlı-cansız hər şey üzərində düşünməyin vacibliyini və bu düşüncənin nəticəsində insanın yaradılış məqsədinin Allah`a qulluq etmək olduğu həqiqətinə əvvəlki hissədə toxunmuşduq. Bu hissədə də çox əhəmiyyətli bir mövzudan bəhs edəcəyik.

Hal-hazırda, neçə yaşındasınızsa, məsələn, 30 yaşınız varsa, bundan 30 il 10 ay əvvələ nəzər yetirək: yer üzündə bir varlığınız olmadığı kimi, var olacağınıza dair bir işarə də yox idi. Sonra bir spermanın yumurta hüceyrəsi ilə birləşməsi və 9 aylıq inkişaf müddəti nəticəsində bir körpə olaraq dünyaya gəldiniz, yəni yox ikən var oldunuz. Əvvəl tək bir hüceyrə idiniz, sonra bu hüceyrə bölünərək iki hüceyrə oldu, sonra dörd, səkkiz, on altı, otuz iki… Nəticədə də milyardlarla hüceyrədən yaranan əli, ayağı, gözləri, qulaqları, burnu, qan dövranı, tənəffüs sistemi olan canlı oldunuz. Üstəlik, bir hüceyrə ikən düşünə bilən, görə bilən, hiss edə bilən, zövq alan, şüur sahibi varlıq oldunuz. Bunun nə qədər möhtəşəm hadisə olduğunu bir az düşündüyünüzdə asanlıqla qavraya bilərsiniz.

Bəs, bu möcüzəvi hadisə necə reallaşdı? Gözlə görünməyən iki parçanın birləşməsi ilə necə şüurlu varlıq meydana gəldi? Bu sualların cavabları aşağıdakı ayələrdə verilmişdir:

**Sizi torpaqdan, sonra nütfədən, sonra laxtalanmış qandan yaradan, sonra uşaq olaraq çıxardan, sonra kamillik ça-**

**ğına çatasınız, daha sonra qocalasınız deyə, yaşadan Odur. İçərinizdə daha əvvəl öldürülənlər də var. (Bütün bunlar) müəyyən bir vaxta yetişəsiniz və bəlkə, düşünüb anlayasınız deyə edilir. Dirildən də, öldürən də Odur. O, bir işi qərara aldıqda ona ancaq: “Ol!” – deyər, o da dərhal olar. (“Mömin” surəsi, 67-68)**

Bu ayələrdə bütün insanların və bütün varlıqların yaradıcısının Allah olduğu və insanların bu reallıq qarşısında ağıllı olmalarının vacibliyi xatırladılır. Ağlından istifadə edən insan əsl yaradılış məqsədinə çatar və Allah`ın dininə təslim olar. Onun razılığını və rəhmətini qazanmaq üçün çalışaraq həyatını davam etdirər. Allah Quranda insanlara öz yaradılışlarını düşünərək aldanışlardan, yanılmalardan uzaq olmalarını belə əmr etmişdir:

**Ey insan! Səni kərim olan Rəbbinə qarşı aldadan nədir? O Rəbbin ki, səni yaratdı, düzəldib qaydaya saldı. Sənə Özü istədiyi surətdə biçim verdi. Xeyr, daha doğrusu, siz haqq-hesab gününü yalan sayırsınız! Sizin üstünüzdə gözətçi mələklər - yazan və çox hörmətli olan mələklər vardır. Onlar sizin nə etdiklərinizi bilirlər. (“İnfitar” surəsi, 6-12)**

Ancaq bütün bu həqiqətlərə baxmayaraq, insan aldanıb-yanılmağa, yanlış yola düşməyə, özünü aldadaraq ömrünü boş işlərə sərf etməyə, Yer üzündəki mövcud olan möcüzələri vicdansızlıq edərək görməməyə, eşitməməyə və ya görüb anlamazlıqdan gəlməyə meyillidir. Əgər insan Allah`ın varlığı və böyüklüyünü düşünməz və ağlından istifadə etməzsə, sonsuz peşmançılıqla qarşılaşa bilər. Buna görə, insanların özlərini aldatmamaları, dünyadakı hər şeyin bir məqsədlə yaradıldığını, sahib olduqları bütün nemətlərin bir hikmətlə verildiyini və hesab günü bütün bunlardan sorğuya çəkiləcəklərini unutmamaları vacibdir.

## DİN ƏXLAQINI YAŞAMAQ ÜÇÜN SƏMİMİ OLMAQ LAZIMDIR

Həqiqi və səmimi imana sahib olan insanlar heç vaxt özlərini aldatmaz və həqiqətlərdən qaçmazlar. Çünki bu insanlarda güclü Allah qorxusu var, buna görə də Allah`ın razılığını itirməkdən çox çəkinirlər. Amma Quranda bildirilən ifadə ilə qəlbində xəstəlik olanlar Allah`a ibadət etməkdə ağır davranırlar. Allah bu insanların varlığını "Nisa" surəsinin 72-ci ayəsində "Aranızda elələri də vardır ki, ağır tərpənər" şəklində bildirmişdir. Bu insanlar Qurana uyğun olan həyat və əxlaq modelini bilsələr də, dini mövzuda səmimi olmadıqları üçün istəksizdirlər. İbadətləri yerinə yetirməmək üçün daim bəhanə axtarırlar. Davamlı olaraq belə bir axtarış içində olduqları üçün də hər bir şərait və mühitdə özlərini aldadan, ya da doğru olandan uzaqlaşdıran saxta səbəblər tapırlar. Allah`ın bir başqa ayəsində bildirdiyi kimi, bir ucundan dini yaşayır və Allah`a lazımi qaydada qulluq etmirlər. Halbuki, onlar belə səmimiyyətsiz ibadət anlayışı ilə yalnız özlərini aldadırlar. Allah bu vəziyyəti Quranda belə açıqlayır:

**İnsanlar içərisində elələri də vardır ki, iman gətirmədikləri halda: "Biz Allah`a və qiyamət gününə iman gətirdik", -deyirlər. Onlar elə güman edirlər ki, Allah`ı və möminləri aldadırlar. Bilmirlər ki, əslində, ancaq özlərini aldadırlar. Onların ürəyində mərəz var. Allah onların mərəzini daha da artırar. Yalan dedikləri üçün onlar şiddətli bir əzaba düçar olacaqlar! ("Bəqərə" surəsi, 8-10)**

Allah`ın dinində səmimiyyət əsasdır. Əgər bir insan vərdişləri səbəbindən və ya ətrafındakı insanlardan əks reaksiya görməmək üçün bəzi ibadətləri istəmədən yerinə yetirirsə, yuxarıdakı ayədə də bildirildiyi kimi, yalnız özünü aldatmış olur. Allah Quranda istəksiz edilən ibadətlərin qəbul olunmayacağını insanlara belə xəbər verir:

**Onların xərclədiklərinin qəbul olunmasına mane olan yalnız Allah`ı və onun Peyğəmbərini inkar etmələri, namaza tənbəl-tənbəl gəlmələri və istəməyə-istəməyə xərcləmələridir. ("Tövbə" surəsi, 54)**

Səmimiyyətdən uzaq insanlar Allah`a qarşı olan məsuliyyətlərindən qaçmaq, ömürlərini dünyəvi həvəslərə sərf etmək üçün bitib-tükənməyən bəhanələr axtarırlar. Gənc yaşlarında, məktəb illərində, iş həyatında, əylənərkən, uşaq sahibi olanda, kədərlənəndə, sevinəndə... hər vəziyyətdə ibadət etmələrinə, Allah`ın əmrlərinə itaət etmələrinə mane olan süni səbəblər tapırlar. Sonrakı hissələrdə insanların bəhanə olaraq qarşıya qoyduqları səbəblər gündəlik həyatdan gətirilən misallarla açıqlanacaq. Burada əhəmiyyətli olan məsələ insanların bu səbəbləri qarşıya qoyduqları zaman səmimiyyətsiz olduqlarını başa düşmələridir. Çünki dünyada bir insanın Allah`ın əmrlərini yerinə yetirməsinə mane ola bilən heç bir səbəb ola bilməz. Əgər insanın belə bir səbəbi varsa, bu, onun səmimiyyətsizliyinin və ya iradəsizliyinin göstəricisidir.

Allah`ın özünə şah damarından yaxın olduğunu, hər şeyi gördüyünü, eşitdiyini, hər kəsin gizlətdiklərini də, aşkar etdiklərini də bildiyini anlayan insan Ona olan qulluğunda əsla səmimiyyətsizlik etməyə cəhd edə bilməz. Bir bəhanə gətirsə, onu qəlbindən keçirərkən və hətta hələ keçirmədən öncə Allah`ın biləcəyini və ya daxilən könülsüz olduğundan Allah`ın xəbərdar olacağını çox yaxşı bilir. Belə bir səmimiyyətsizliyə cəhd etmənin əvəzsiz qalmayacağını da düşünüb anlayır. Bu səbəbdən də özünü aldatmanın çıxış yolu olmadığının, əksinə, onu çox böyük itkilərə uğradacağının şüurundadır. Belə bir insan heç bir şəraitdə Allah`ın rizasından uzaqlaşmaz. Çünki Allah`a qəti şəkildə iman etdiyi üçün zəifliyi yoxdur. Qeyd-şərtsiz səmimiyyətə malikdir.

Qəlbində xəstəlik olan insanlar isə Allah`ı açıq şəkildə inkar

etməsələr də, imanlarında zəiflik vardır. Yəni inancları müəyyən şərtlərə bağlıdır. Mənfəətlərinə zidd olan anda Quran əxlaqını yaşamaqdan imtina edə bilərlər. Özlərinə asan gələn ibadətləri yerinə yetirərək vicdanlarını rahatlaşdırmağa çalışarlar.

Bu insanlar özlərini açıq şəkildə aldadaraq bunun şüurunda olmazlar. Siz də bu insanların Allah qatında düşdüyü səmimiyyətsiz vəziyyətə düşmək istəmirsinizsə, diqqət edin və əsla özünüzü aldatmayın. Əgər bilginiz azdırsa, Rəbbimizi Quranı oxuyaraq tanıya bilərsiniz. Çünki Allah Özünü qullarına endirdiyi kitabında tanıtmışdır. Beləliklə, Allah`ın qədrini haqqı ilə təqdir edə bilər, kamil imanlı, səmimi dindar ola bilərsiniz. Amma Allah`ı və dinini cahiliyyə cəmiyyətinin dünyagörüşü ilə qiymətləndirsəniz, bərpası mümkün olmayan böyük səhvlər edərsiniz. Unutmayın! Ancaq Allah`a qəti şəkildə iman etdiyinizdə və səmimi qulluq etdiyinizdə qurtula bilərsiniz.

## AXİRƏT İNANCININ GÜCLÜ OLMASI İLƏ SƏMİMİ DİNDAR OLMAQ MÜMKÜNDÜR

Əvvəlki hissələrdə də ifadə etdiyimiz kimi, yaradılış məqsədini unudaraq öz istək və arzuları istiqamətində dəyərsiz işlərin arxasınca qaçaraq həyatını Allah`ın əmr və qadağalarını tanımadan keçirən bir insan ölümdən sonra diriləcəyini, etdiklərinin bir-bir hesabını verəcəyini və buna uyğun qarşılıq görəcəyini düşünmək istəmir. Axirətin varlığını bilsə də, vicdanını susduraraq özünü aldadır. Sırf bu həqiqətdən qaçmaq üçün bəzi azğın inanclara belə əl atır. Məsələn, xüsusilə son zamanlarda yayılan, öldükdən sonra dəfələrlə dirilərək fərqli yerlərdə və zamanlarda yenidən dünyaya gəlmə şəklində açıqlanan reinkarnasiya inancının insanlar tərəfindən mənimsənməsinin səbəblərindən biri də budur. Dünyada etdiklərinin əvəzini axirətdə cəhənnəm kimi bir cəzanın özlərini gözlədiyini bilən

və ya heç olmasa bunu ehtimal edən insanlar öldükdən sonra axirətə gedəcəkləri həqiqətindən narahat olurlar. Buna görə də heç bir dəlil və əsasın olmadığına baxmayaraq, bu azğın inancı və ya bu tərz inancları tez qəbul edirlər.

Bu şəkildə özlərini axirətin olmadığına inandıraraq ovutmağa çalışan insanlar hər dövrdə yaşamışdır. Allah Quranda bu insanların sırf axirəti qəbul etməmək və bu həqiqətlə üz-üzə gəlməmək üçün ağıl və məntiqdən necə uzaqlaşdıqlarını bizlərə ibrət olaraq anlatmışdır. Bu ayələrdən biri belədir:

**Deyirlər: "Doğrudanmı, biz (öləndən sonra dirilib) əvvəlki vəziyyətimizə qaytarılacağıq?! Özü də çürümüş sümüklər olduğumuz zamanmı?!" Onlar deyirlər: "Elə isə bu ziyanlı dönüşdür". ("Naziat" surəsi, 10-12)**

Yuxarıdakı ayələrin sonunda da göründüyü kimi, axirəti və dirilişi inkar edən bu insanlar yenidən dirildiləcəklərinin öz zərərlərinə olacağını vicdani olaraq bilirlər. Buna görə, bu həqiqəti mümkün olduqca ağıllarına gətirməməyə, azğın düşüncələrlə unutmağa və unutdurmağa çalışırlar. Cavabını çox yaxşı bildikləri halda, sırf həqiqətlərdən qaçmaq üçün bu sualları verirlər:

**Öz yaradılışını unudub: "Çürümüş sümükləri kim dirildə bilər?!" – deyə, hələ Bizə bir məsəl də çəkdi. De: "Onları ilk dəfə yoxdan yaradan dirildəcəkdir. O, hər bir məxluqu çox gözəl tanıyandır!" ("Yasin" surəsi, 78-79)**

Axirət mövzusunda bu şəkildə özlərini aldatma yolunu seçən insanların bu məntiqləri bütün düşüncə və davranışlarında əks olunur. Əgər bir insan özünü ölümdən sonra hesab gününün olmayacağına, cənnət və ya cəhənnəm həyatının olmadığına inandırsa, hər cür azğınlığı etməyə qadir olar. Çünki insanı qorxudub-çəkindirən səbəblərdən biri axirətdə etdiklərinə uyğun əvəz görəcəyi inancıdır. Amma əgər əks düşüncədədirsə, məsuliyyətlərinə əhəmiyyət verməz və görməzlikdən gəlməyə başlayar. Çünki ancaq axirətə inanan insanlar bu dünyada özlərini aldadaraq reallıqdan qaçmanın axirətdə

çox böyük acı və hüsranla nəticələnəcəyini bilirlər.

Siz də bir az düşündüyünüzdə özünüz də daxil olaraq ətrafınızdakı heç bir şeyin təsadüfən olmadığını, hər şeyin Allah`ın sonsuz gücü, bilgisi, istəyi və idarəsi ilə reallaşdığını asanlıqla görə bilərsiniz. Bundan başqa, axirəti yaratmanın da yuxarıdakı ayələrdə xəbər verildiyi kimi, Rəbbimiz üçün çox asan olduğunu, İlahi ədalətə ən uyğun olduğunu qavraya bilərsiniz. Diqqət edin! Anlamazlıqdan gələrək özünüzü aldatmayın. Çünki bu mövzuda özünü aldadanlar və axirət həqiqətindən uzaq yaşayanlar axirətdə etdikləri səhvləri bərpa edə bilməmənin sonsuz acısını yaşayacaqlar.

## İNSANLAR ŞEYTANA İTAƏT ETMƏZLƏR

İnsanların böyük əksəriyyəti şeytanın əsl xüsusiyyətlərini tanımır, onu ətrafdan eşitdikləri və ya filmlərdə gördükləri kimi, xəyali varlıq olaraq canlandırırlar. Buna görə, bəzi insanlar şeytanın müstəqil gücə sahib olduğunu düşünürlər. (Allah`ı tənzih edirik). Bəzi insanlar da şeytanın varlığına şübhə ilə yanaşaraq ona əhəmiyyət vermirlər. Varlığına ehtimal versələr belə, şeytanın üzərilərində hər hansı bir təsirinin ola biləcəyini heç düşünmürlər. Bunların hər ikisi də heç bir dəlilə əsaslanmayan, əksinə, yalnız güman edilən yanlış inanclardır. Hər mövzuda olduğu kimi, bu mövzuda da ən doğru və əsaslı məlumatı Allah`ın haqq kitabından öyrənə bilərik.

Quranda bildirildiyinə görə, şeytan zənn edildiyi kimi müstəqil gücə sahib deyil. Allah`ın yaratdığı və Onun nəzarətində olan varlıqdır. Dünyada etdiyi bütün fəaliyyətlər ancaq Allah`ın izni ilə reallaşır. Şeytan Allah`ın hüzurundan qovulduqdan sonra Allah`dan qiyamətə qədər möhlət istəmişdir. Şeytanın Allah`ın hüzurundan qovulması və aldığı bu möhlət ayələrdə belə bildirilir:

**Sizi yaratdıq, sonra sizə surət verdik və mələklərə: “Adəmə səcdə edin!” - dedik. İblisdən başqa hamısı səcdə**

**etdi. O, səcdə edənlərdən olmadı. (Allah İblisə:) "Mən sənə əmr edəndə sənə nə mane oldu?" - deyə buyurdu. (İblis:) "Mən ondan daha yaxşıyam, çünki Sən məni oddan, onu isə palçıqdan yaratdın!" - dedi. (Allah) buyurdu: "Oradan aşağı en. Orada sənə təkəbbür göstərmək yaramaz. Çıx, çünki sən alçaqlardansan!" (İblis) dedi: "Mənə qiyamətə qədər möhlət ver!"(Allah) buyurdu: "Sən möhlət verilənlərdənsən!" (İblis) dedi: "Sən məni azdırıb yoldan çıxartdığın üçün mən də Sənin düz yolunun üstündə oturub insanlara mane olacağam! Sonra onların qarşılarından və arxalarından, sağlarından və sollarından gələcəyəm və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən!" (Allah) buyurdu: "Oradan rüsvay olmuş və kənar edilmiş halda çıx. Onlardan hər kim sənə uysa (cəzasını alacaq). Əlbəttə, cəhənnəmi sizin hamınızla dolduracağam!" ("Əraf" surəsi, 11-18)**

Şeytan Allah`ın hüzurundan qovulduqdan sonra insanları da özü kimi azdıracağına and içmiş və hiyləgər fəaliyyətlərinə başlamışdır. Allah şeytanın bu fəaliyyətlərini Özünə iman və qulluq edənlərlə etməyənləri ayırd etmək üçün imtahan səbəbi etmişdir. Buna görə, şeytanın hiyləgər oyunları, tələləri və planları dünyada yaşayan, yəni imtahanı davam edən bütün insanlara aiddir. Şeytan istisnasız bir-bir hər kəsi aldatmaqla məşğuldur. Buna görə, heç kim şeytanın təsirini özündən uzaq görməməlidir. Əgər insan bu təhlükənin şüurunda olsa, diqqətli davranar və şeytanın ən kiçik hiyləsini belə anlayar. Amma əgər özündən uzaq görsə, asanlıqla şeytanın təsiri altına düşə bilər. Bu səbəbdən, şeytan Allah`ın səmimi qullarına təsir edə bilməz, çünki onlar şeytanın doğru yoldan azdırmağa çalışacağını heç bir zaman unutmaz və hər zaman onun təsirinə qarşı təmkinli davranarlar.

Şeytanın yanlış təlqini hər an özünü göstərə bilər. İnsan gündəlik həyatında qarşılaşdığı hər hadisədə səhv edə bilər. Əgər səmimi imana sahib deyilsə, bu təsir onun bütün həyatını əhatə edər ki, bunun nəticəsində insanı cəhənnəmə qədər aparar. Şeytanın hədəfi də budur. Şeytan insanların Allah`a qarşı üsyan etmələrini və bunun nəticəsində sonsuza qədər əzab içində qalmalarını istəyir. Cəhənnəmə girənə qədər onlardan əl çəkməz. Bütün hiylələrinin, insanları davamlı olaraq müşahidə etməsinin, fürsət gözləməsinin məqsədi insanları da özü ilə birlikdə cəhənnəmə aparmaqdır. Allah bir ayəsində şeytanın bu düşmənçiliyinə qarşı insanları xəbərdar etmişdir:

**Həqiqətən, şeytan sizin düşməninizdir, onu düşmən tutun. O, özünə uyanları cəhənnəm əhli olmağa çağırır. ("Fatir" surəsi, 6)**

Şübhəsiz, Allah bu ayəsi ilə böyük təhlükəyə diqqət çəkmişdir. Şeytan insanlığın başlanğıcından bu yana Allah`a iman etməyən saysız-hesabsız insan üzərində bu hədəfinə çatmışdır. Bu vəziyyətə ayələrdə diqqət çəkilmişdir:

**İblisin onlar haqqındakı zənni düz çıxdı. (İçərilərindən) bir dəstə mömin istisna olmaqla, hamısı ona uydu. Əslində, (iblisin) onlar üzərində heç bir hökmü yoxdur. Lakin Biz axirətə inananla ona şəkk edəni ayırd edib bilmək üçün (ona bu imkanı verdik). Sənin Rəbbin hər şeyi hifz edəndir! ("Səba" surəsi, 20-21)**

Amma qeyd etmək lazımdır ki, Allah Quranda şeytanın hiyləsinin zəif olduğunu da bildirmişdir ("Nisa" surəsi, 76). Yuxarıdakı ayədə də göründüyü kimi, şeytanın insanları məcbur etməsi mümkün deyil, onun buna gücü də çatmaz. Şeytan insanları yalnız çağırar və Allah`a səmimi olaraq iman etməyən, axirəti inkar edən insanlar bu

çağırışa tabe olub özlərini zərərə aparарlar. Axirətdə şeytanın etirafı bir ayədə belə bildirilir:

**İş bitdikdə şeytan belə deyəcək: "Allah sizə doğru vəd vermişdi. Mən də sizə vəd vermişdim, amma sonra vədimə xilaf çıxdım. Əslində, mənim sizin üzərinizdə heç bir hökmüm yox idi. Lakin mən sizi çağırdım, siz də mənə uydunuz. İndi məni yox, özünüzü qınayın. Nə mən sizin dadınıza çata bilərəm, nə də siz mənin dadıma. Mən öncə sizin məni şərik qoşmağınızı da inkar etmişdim". Həqiqətən, zalımları şiddətli bir əzab gözləyir! ("İbrahim" surəsi, 22)**

Şeytanın hiyləsi zəifdirsə, verdiyi mənfi təlqinlərin təsirindən xilas olmaq da çox asandır. Allah insanlara bu təsirdən uzaqlaşmanın yollarını da ayələri ilə belə bildirir:

**Əgər sənə şeytandan bir vəsvəsə gəlsə, Allah`a sığın. Şübhəsiz ki, Allah eşidəndir, biləndir! Allah`dan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman onlar (Allah`ın əzabını, lütfünü və mərhəmətini) xatırlayıb düşünərlər və dərhal görən olarlar. ("Əraf" surəsi, 200-201)**

Bu ayələrdən də göründüyü kimi, şeytanın iman etmiş insanlar üzərində təsiri mümkün deyil. Şeytanın mənfi təsirindən uzaqlaşmanın yolu da, əvvəlcə, sonsuz qüdrət sahibi olan Allah`a sığınmaq və Allah`ın ayələri üzərində düşünməkdir. Qəflətə qapılmadan zehin açıqlığı ilə düşünən və həqiqətləri görə bilən insan şeytanın özünü aldatmasına qarşı son dərəcə diqqətli olar və onun tələsinə düşməz; imanı, qətiyyəti  və Allah`a olan sədaqəti ilə şeytanın tələsini pozar.

Amma insanların əksəriyyəti özləri üçün belə bir təhlükənin olduğunu düşünməz, buna görə, şeytanın təlqinlərinə qarşı Allah`a sığınmazlar. Şeytan qəflət içindəki bu insanlara hiyləgərcə yaxınlaşar

və öz təlqinlərini pıçıldayar. Bəzi insanların həqiqətləri bilə-bilə özlərini aldatmalarının səbəblərindən biri də şeytanın bu təlqinlərinə və vəsvəsələrinə qulaq asmaları, ona tabe olmalarıdır.

Belə bir sual meydana çıxır: şeytan ağıllı kimi görünən o qədər insanı bu dərəcədə ağılsız hərəkətləri etməyə necə məcbur edə bilər? Hansı yollardan istifadə edib özlərini aldatmalarına və sonu cəhənnəmlə bitən bir yola düşmələrinə səbəb ola bilər?

Növbəti səhifələrdə şeytanın təlqininə qapılıb özlərini aldadan bəzi insanların vəziyyətləri, bəhanələri, özlərini aldatma səbəbləri və bu insanların düşdükləri ibrətverici vəziyyət izah ediləcək. Şeytanın bu insanları hansı yollarla aldatdığına və əzaba sürüklədiyinə diqqət çəkiləcək və səmimi insanların bu hiyləgər metodlara qarşı təmkinli olmaları xatırladılacaq.

## ŞEYTAN İNSANLARA BƏHANƏLƏR TƏLQİN EDİR

Şeytan insanları Allah`ın yolundan azdırmaq, Allah`ın əmr etdiyi ibadətləri yerinə yetirmələrinə və Quranda bildirilən üstün əxlaqı yaşamalarına mane olmaq üçün yollar axtarır. Bu yollardan biri də insanların yerinə yetirmədikləri ibadətlərlə əlaqədar müxtəlif bəhanələr uydurmalarını təmin etməkdir. Yəni şeytan insanı yanlış yola apararkən bəhanələrini də onunla birlikdə gətirir. Məsələn, Allah`a ibadət etməli lazım olduğunu bilən gənc insana qarşısında daha çox uzun illər olduğu, gələcəkdə bu məsuliyyətlərini tam olaraq yerinə yetirəcəyi, amma indi buna vaxtının olmadığı, şəraitin də əlverişli olmadığı, bütün gün məktəbdə və ya işdə olduğu, bundan əlavə, yoldaşlarının da bunu bəyənməyəcəyi kimi onlarla bəhanə təlqin edir. Əgər insan səmimi və güclü imana sahib deyilsə, şeytanın bu təlqinlərinə aldanır. Amma şeytan bununla da kifayətlənməyərək insanı rahat buraxmaz. Daha əvvəl də ifadə edildiyi kimi, həmin insan

cəhənnəmə girənə qədər rahat olmaz. Bir tərəfdən də insana davamlı olaraq etdiklərinin məqbul olduğunu, bu şəkildə hərəkət etməkdə haqlı olduğunu təlqin edir. Sonunda həmin insan Allah`a qulluq vəzifələrini yerinə yetirməyən, bunda haqlı səbəbləri olduğunu zənn edən, hətta bu mövzuda çox sabit fikirli insan halına gəlir.

Halbuki, daha əvvəl də xatırladıldığı kimi, hər insan özünü yaratmış olan Allah`a qulluq etməsinin lazım olduğunu vicdani olaraq çox yaxşı bilir. Ancaq şeytanın özünə təlqin etdiyi səbəblərlə özünü bu an üçün hazır olmadığına inandırmışdır. Bir başqa ifadə ilə desək, etməli olduqlarını vicdani olaraq bilməsinə baxmayaraq, müxtəlif səbəblərlə özünü aldatmış və özünü səhv olana inandırmışdır.

Allah Quranda şeytanın təlqinləri ilə səmimiyyətdən uzaqlaşan bu insanlara dair bir çox nümunə vermişdir. Bu nümunələrdən bəziləri Peyğəmbərimizin (s.ə.v) dövründə yaşayan və imani zəiflik içində olan insanlardan verilmişdir. Peyğəmbərimiz (s.ə.v) də möminləri Qurandakı əmrlər istiqamətində haqq uğrunda mübarizəyə təşviq etmişdir. Lakin Allah`ın ayələrdə xarakterizə etdiyi kimi, qəlbində xəstəlik olan insanlar döyüşə çıxmamaq üçün müxtəlif bəhanələr uydurmuşdular. Bu vəziyyət ayələrdə belə bildirilir:

**Və münafiqləri onlardan fərqləndirsin. Onlara: "Gəlin Allah yolunda vuruşun, yaxud müdafiədə bulunun!" – deyildi. Onlar: "Əgər biz vuruşa bilsəydik, sizin ardınızca gələrdik", – deyə cavab verdilər. Onlar o gün imandan çox küfrə yaxınlaşmışdılar, ürəklərində olmayan şeyi dilləri ilə deyirlər. Halbuki, Allah onların gizlətdiklərini çox yaxşı bilir! ("Ali-İmran" surəsi, 167)**

Bu insanların şeytanın təsirinə düşdükləri aydındır. Çünki onlar şəxsən Peyğəmbərimizin (s.ə.v) təbliğinə şahid olmuş, Allah`ın dinini yaxşı bilən insanlardır. Amma həqiqəti bilmələrinə, hətta ibadətlərdən bir qismini o günə qədər yerinə yetirmələrinə baxma-

yaraq, dünyaya olan bağlılıqları səbəbindən şeytanın bu tələsinə düşmüşlər. Allah`ın ayədə bildirdiyi kimi, müsəlmanları qorumağı lazım olduğunu çox yaxşı bilmələrinə baxmayaraq, bilmədiklərini söyləyərək özlərini və möminləri də guya aldatmağa çalışıblar. Bu insanların bir hissəsi də Peyğəmbərimizə: (s.ə.v) “Mal-dövlətimiz və ailələrimiz başımızı qatdı. (Allah`dan) bizim bağışlamağımızı dilə”, - deyərək qaçmağa çalışıblar (“Fəth”surəsi, 11). Bu ifadələr şeytanın təsiri ilə deyilmiş ifadələrdir. Bütün müsəlmanların canı təhlükə altında ikən insanın özünü düşünməsinin nə qədər böyük vicdansızlıq olduğu məlumdur.

İnsanlar Allah`ın əmrlərinə tabe olmaq və razılığını qazanmaq üçün nə edəcəklərini çox yaxşı bilirlər. Belə ki, səmimi olmadıqlarını bildikləri üçün Peyğəmbərimizə (s.ə.v) özləri üçün bağışlanma diləməsini söyləyərək vicdanlarını rahatlatmağa çalışıblar. Vicdansızlıq etmələrinə baxmayaraq, söylədikləri yalanlara özlərini elə inandırmışdılar ki, sonunda buna sevinəcək vəziyyətə düşmüşdülər. Allah bir ayəsində ibadətlərdən geri qaldıqları üçün sevinən səmimiyyətsiz insanların vəziyyətinə belə diqqət çəkmişdir:

> **Arxada qalanlar Allah`ın Rəsuluna qarşı çıxaraq (evdə) oturub qalmalarına sevindilər, Allah yolunda malları və canları ilə cihad etmək istəmədilər və (möminlərə): “Bu istidə döyüşə çıxmayın!” – dedilər. De: “Cəhənnəm odu daha istidir!” Kaş biləydilər! (“Tövbə” surəsi, 81)**

Peyğəmbərimizin (s.ə.v) dövründəki şərtlərə və mühitə görə insanlara bu bəhanələri təlqin edərək onları aldadan şeytan, əlbəttə, bu gün yaşayan insanları daha fərqli təlqin və bəhanələrlə aldatmağa çalışır. Çünki şeytan dünyadakı imtahanın tələbi olaraq insanların bütün zəifliklərindən xəbərdardır. Hər şəraitə, hər mühitə görə fərqli planlar hazırlaya bilər. Qarşısındakı insanlar alimlər, professorlar, liderlər, sənətçilər, qısası mədəni səviyyəsindən tutmuş hər cür maddi

imkana sahib olan insanlar ola bilər. Şeytan bu insanların hamısına hansı yollardan yaxınlaşacağını bilir.

Şeytanın davamlı olaraq fürsət axtarmasına baxmayaraq, təsir edə bilmədiyi yeganə insanlar Allah`ın Quranda bildirdiyi kimi, saleh müsəlmanlardır. Çünki əvvəldə də ifadə edildiyi kimi, möminlər Allah`dan qorxduqları və cəhənnəmdən şiddətlə çəkindikləri üçün şeytanın hər cür hiyləsinə qarşı diqqətlidirlər. Bundan əlavə, Allah`a olan imanları səbəbindən çox güclü ağıla, vicdan və iradəyə sahibdirlər.

Şeytanın bura qədər izah edilən taktikaları, təlqinləri bütün insanlara aiddir. Yəni siz də şeytanın bu hiyləgər təlqinlərinə məruz qalma ehtimalı olan insansınız. Əgər səmimi imana sahibsinizsə, əsla bu həqiqətləri bilə-bilə şeytanın tələsinə düşməyin. Unutmayın, şeytan sizi də özü ilə birlikdə cəhənnəmə sürükləmək üçün pusquda gözləyir, sizin üçün planlar hazırlayır. Fürsət tapan kimi hiyləgərcəsinə hərəkətə keçəcək. Şeytana bu fürsəti verməyin. Sizi Allah`ın yolundan azdırmaq, Ona qulluq və dua etmənizə mane olmaq üçün müxtəlif bəhanə pıçıldayacaq. Üstəlik, bunları son dərəcə məqbul və məntiqli göstərməyə çalışacaq. Beləliklə, özünüzü aldadaraq razı salmağınızı təmin etməyə çalışacaq. Halbuki, siz vicdanınız sayəsində bunların hamısını rahatca anlaya bilər, iradənizdən istifadə edərək şeytanın təsirini özünüzdən asanlıqla uzaqlaşdıra bilərsiniz. Bu dünyada sizin üçün heç bir şey cəhənnəmdən xilas olmaqdan daha əhəmiyyətli və təcili ola bilməz. O halda, şeytanın bəhanələrini mənimsəyərək özünüzü aldatmağa çalışmayın. Çünki din günü heç bir bəhanə etibarlı olmayacaq, hətta ayədə bildirildiyi kimi, insanların bəhanələrini saymağa da icazə verilməyəcək.

Həqiqət budur, diqqət edin! Əsla Allah`ın dinini yaşamaq üçün bəhanələr uydurub özünüzü aldatmayın.

## ŞEYTAN İNSANI BOŞ VƏ MƏNASIZ İŞLƏRLƏ MƏŞĞUL EDİR

Şeytanın insanları aldatmaq üçün istifadə etdiyi taktikalardan biri də onları boş və mənasız işlərlə məşğul etməsidir. Bunun üçün Allah`ın rizasından uzaq olan işləri insanlara cazibədar göstərir. Şeytanın bu təlqinlərinə qapılan insanlar davamlı olaraq dünyəvi planlar və hədəflərlə məşğul olan insanlara çevrilirlər. Bunlarla əylənərkən Allah`a olan qulluq vəzifələrini, dünyadakı həyatlarının bir gün sona çatacağını və Allah`ın hüzurunda hesab verəcəklərini ağıllarına belə gətirməzlər. Əvvəlki bölmələrdə qeyd edildiyi kimi, daha yüksək mövqe, daha çox pul və sərmayə, daha parlaq gələcək kimi keçici maraqlarla bütün həyatlarını keçirirlər. Halbuki, bir saniyə sonra yaşayacağına zəmanəti olmayan, harada və necə öləcəyini əsla bilməyən insanın belə nəticəsi olmayan planların arxasınca getməsinin böyük qəflət olduğu məlumdur.

Amma insanların böyük əksəriyyəti belə yaşamaq məcburiyyətində olduqlarına özlərini inandırıblar. Özlərini aldadaraq həyatlarını bu cür davam etdirmək yolunu seçirlər. Buna görə, hər biri öz məqsədini dünyanın ən əhəmiyyətli işi hesab edir. Məsələn, katibə üçün müdirinin yığıncaqlarını unutmamaq, şagird üçün dərslərindən daha yüksək qiymət almaq, satıcı üçün o gün daha çox ayaqqabı sata bilmək, iş adamı üçün daha böyük tender qazanmaq, idmançı üçün ən böyük mükafatı almaq, sənətçi üçün diskini daha çox insana dinlədə bilmək, gənc qız üçün ən gözəl paltarı geyinmək, universitet tələbəsi üçün yoldaşları arasında ən mədəni insan olmaq, tərcüməçi üçün ən doğru sözləri istifadə etmək, yazıçı üçün ən ədəbi üslubla kitablar və məqalələr yazmaq dünyanın ən böyük məqsədləridir. Əlbəttə, burada sayılanların istənməsi təbiidir, amma yuxarıda da ifadə edildiyi kimi, bunlar insan üçün həyatdakı ən əhəmiyyətli işlər deyil. İnsanın Allah`ın razılığını qazanmaqdan və cənnətinə layiq qul

olmaqdan daha əhəmiyyətli işi ola bilməz.

Əgər insan özünü aldadıb həqiqətləri görməzlikdən gələrək dünyaya aid istəklərinin həyatın yeganə məqsədi olduğunu zənn etsə, gözləmədiyi anda ölümlə qarşılaşdığında böyük peşmançılıq yaşayacaq. O ana qədər özü üçün ən əhəmiyyətli dəyərlərin evi, iş yeri, avtomobili, diplomu, paltarları, dostları, qohumları olduğunu zənn etmişdir. Ancaq bunların nə qədər keçici və dünyadakı imtahan mühitinin bir parçası olduğunu ölüm mələklərini gördüyü anda anlayar. Bir tərəfində sonsuz mükafat yurdu olan cənnət, bir tərəfində isə insanın bədəninə və ruhuna ən şiddətli əzabların yaşadıldığı cəhənnəm olduğu halda, Allah`ın hüzurunda sorğu-sual olunarkən yaşadığı çarəsizlik və peşmançılıq dözülməz dərəcədədir.

O anda ancaq Allah`ın rizası üçün edilən işlər əsasdır. Lakin həmin insan həyatı boyu belə bir şey etməmiş, Allah rizası üçün işləməmişdir. O zaman dünyada həyatını həsr etdiyi, ömrünü sərf etdiyi işlərin heç bir mənası və əhəmiyyəti olmadığını ən açıq şəkildə anlayar. Hərçənd bunlar bilmədiyi şeylər deyil. Qarşısına çıxanların hamısı vicdani olaraq çox yaxşı bildiyi, amma özünü aldadaraq qaçdığı həqiqətlərdir. Allah bu insanların vəziyyətini **"...Şeytan əməllərini onlara gözəl göstərib gözləri görə-görə onları haqq yoldan çıxartdı**" **("Ənkəbut" surəsi, 38)** ayəsində xəbər vermişdir. Yəni bu insanlar həqiqətləri görə biləcəkləri halda, şeytanın təlqinlərinə bilə-bilə uymuş və boş işlərlə həyatlarını keçirmişdilər.

Axirətdə səhv davrandığını qəbul etmənin bu insanlara bir fayda gətirməyəcəyini Allah ayələrində belə bildirir:

> **Rəbbinin əmri gəlib mələklər səf-səf duracağı və cəhənnəmin gətiriləcəyi gün – məhz o gün insan xatırlayacaqdır. Lakin bu xatırlamağın ona nə faydası?! O: "Kaş ki, mən əvvəlcədən həyatım üçün (yaxşı əməllər) edəydim!" – deyəcəkdir. O gün (Allah`ın) etdiyi əzabı heç kəs edə bilməz! (Günahkarları) heç kəs Onun kimi zəncirləyə bilməz! ("Fəcr" surəsi, 22-26)**

O halda, siz axirətdə: “Kaş ki”, - deyənlərdən olmamaq üçün həyatınızın əsl məqsədini düşünün və etdiyiniz işlərin bu məqsədə nə qədər xidmət etdiyini bir daha nəzərdən keçirin. Diqqət edin, əsla boş və mənasız işlərlə özünüzü yaxşı işlər görürmüş kimi aldatmayın. Bu, gün ərzində etdiyiniz bütün işlərə, məşğul olduğunuz hər şeyə aiddir. Maddi və mənəvi bir şey üçün çalışdığınızda əsl məqsədiniz Allah`ın rizasını və cənnətini qazanmaq olmalıdır. Əgər bir işdə Allah`ın rizasını görmürsünüzsə və axirətinizə bir fayda verməyəcəyini düşünürsünüzsə, ondan çəkinin. Xeyir və fayda gördüyünüz işlərə yönəlin. Vicdanınızın səsi sizə bunu ayırd etməyi ən doğru şəkildə söyləyəcək. Mütləq vicdanınızın səsini dinləyin və diqqət edin, şeytan dəyərsiz, keçici şeyləri cazibədar edərək sizi də aldatmasın.

## ŞEYTAN HİYLƏLİ VƏDLƏR VERİR

Şeytan insanı Allah`ın yolundan azdırmaq üçün insanlara boş işləri bəzəkli göstərməklə qalmır, onlara bu mövzuda müxtəlif vədlər də verir. Allah şeytanın bu hiyləsini bir ayəsində belə bildirir:

**(Şeytan) onlara vədlər verir, ürəklərində arzular oyadır. Lakin şeytan onlara yalnız yalan vədlər verir. (“Nisa” surəsi, 120)**

Şeytanın təsirinə düşən insanlar önlərində çox uzun illərin olduğuna özlərini inandırıb uzun müddətli planlar qururlar. Sanki bu dünyada sonsuza qədər yaşayacaqmış kimi mal, mülk, məqam, mövqe həvəsinə qapılıb Allah`ın razılığından tamamilə uzaqlaşırlar. Allah bunun şeytanın bir hiyləsi olduğunu başqa bir ayədə belə bildirir:

**Doğru yol özlərinə bəlli olduqdan sonra dönənlərə şeytan xoş göstərdi və onları tovlayıb yoldan azdırdı. (“Muhəmməd” surəsi, 25)**

Hər insanın çoxlu planları vardır. Daha əvvəl də qeyd edildiyi kimi, hər peşədən, hər yaşdan, hər ictimai mühitdən insanların planları bir-birindən fərqli olsa da, əslində, hamısı dünyaya istiqamətlənmişdir. Məsələn, bir iş adamının gələcəyə aid ən böyük idealı böyük bir fabrikə sahib ola bilməkdir. Bu fabrikə sahib olduqdan sonrakı ən böyük idealı isə istehsal etdiyi malları dünya səviyyəsində ixrac etməkdir. Və ya bir sənətçinin idealı ölkəsindəki hər kəs tərəfindən tanınan, sevilən, hörmət edilən, qabiliyyətləri təqdir edilən insan ola bilməkdir. Bu məqsədinə çatarsa, bir sonrakı məqsədində də eyni müvəffəqiyyəti bütün dünya səviyyəsində göstərə bilməkdir. Bir çox insan üçün belə nümunələri saya bilərik. Bu insanlar dünyada özləri üçün seçdikləri idealları reallaşdıra bilmək üçün gecə-gündüz çalışırlar.

Amma, görəsən, bunları həyata keçirə biləcək qədər ömürləri vardırmı? Hər insan, əvvəlcə, bunu düşünməlidir. Çünki yuxarıda sayılan planların heç birinin reallaşması sığortalanmayıb. Amma ölüm mütləq reallaşacaq, hər insanın başına gələcəkdir. Buna baxmayaraq, bu insanların ölümdən sonrası üçün heç bir plan və hazırlığı yoxdur. Bütün həyatları dünyadakı həyatlarına aid idealları reallaşdırmağa həsr olunmuşdur. Üstəlik, bir gün ölümlə birlikdə bütün planlarının bir daha tamamlanmamaq üzrə yarıda qala biləcəyini ağıllarına belə gətirməmişdilər. Çünki şeytan onlara ayədə bildirildiyi kimi, müxtəlif vədlər vermiş və onlar da bunlara qapılıb özlərini aldadaraq bir ömrü puç etmişdilər.

Halbuki, insan bitib-tükənməz arzular arxasınca qaçmaqdansa Allah`a qarşı məsul olduğunu və din günündə Onun hüzurunda bütün etdiklərinin hesabını verəcəyini bilərək Allah`ın Quranda göstərdiyi şəkildə yaşamalıdır. Əks halda, sonsuz həyatı üçün hazırlıq görməməsi, özünə verilən fürsəti qaçırması onu sonsuza qədər cənnətdən məhrum edə bilər. Cənnətdən məhrum olan insanın gedəcəyi yer isə cəhənnəmdir.

Allah`ın özünə verdiyi bu müddəti heç bir dəyəri olmayan işlərlə puç edənlər axirətdə çox böyük peşmançılıq yaşayacaqlar. Onlara o gün belə deyiləcək:

**Məgər orada sizə öyüd-nəsihət qəbul edəcək kimsənin öyüd-nəsihət qəbul edə biləcəyi qədər ömür vermədikmi?! ("Fatir" surəsi, 37)**

Ayədə bildirildiyi kimi, hər insana öyüd ala biləcəyi, vicdanının səsini eşidə biləcəyi qədər vaxt verilmişdir. Şeytan nə qədər səhv yola aparmağa çalışsa da, insanın bu çağırışa qulaq asmamaq, Allah`ın əmr etdiyi yolda irəliləmək imkanı vardır. Bunun tək yolu səmimi iman və Allah`a güvəndir. Necə ki, bu xüsusiyyətlərə sahib insanlara aid olaraq şeytanın hər cür səyinin, hiyləgər vədinin boşa çıxacağı Quranda bildirilmişdir:

**Onlardan kimi bacarırsansa, səsinlə yerindən oynat, atlı və piyadanı onlara qarşı səfərbər et, mallarına və övladlarına ortaq ol, onlara cürbəcür vədlər ver. Şeytan yalnız yalan vəd verər! Doğrusu, Mənim bəndələrim üzərində sənin heç bir hökmün ola bilməz. Rəbbinin vəkil olması kifayət edər! ("İsra" surəsi, 64-65)**

Diqqət edin, şeytan sizi də dünyəvi həvəs və əməllərin arxasınca aparıb əsl hazırlıq görməyiniz lazım olan yeri unutdurmasın. Siz dünyəvi ideallarla, müvəqqəti həvəslərlə özünüzü əyləndirib, yaxşı işlər etdiyinizi sanaraq aldatmayın. Allah`ın aşağıdakı əmrini həyatınızın heç bir anında unutmadan tətbiq edin:

**Ey iman gətirənlər! Allah`dan qorxun! Hər kəs sabah üçün nə etdiyinə nəzər salsın. Allah`dan qorxun. Həqiqətən, Allah etdiklərinizdən xəbərdardır! Allah`ı unutduqları üçün Allah`ın da onları özlərinə unutdurduğu kimsələrə bənzəməyin! Onlar fasiqlərdir! ("Həşr" surəsi, 18-19)**

# İNSANLAR HANSI YALANLARLA ÖZLƏRİNİ ALDADIRLAR?

Şeytan insanları müxtəlif bəhanə, təlqin və hiyləgər dəvətlərlə öz yoluna çəkməyə çalışır. İnsanlara yaradılış məqsədlərini unutduraraq onları dünyəvi mənfəətlərə, müvəqqəti ideallara yönəldir. Əgər insan şeytanın bu çağırışına aldansa və hər şeyi yaradan Rəbbimizin çağırışından üz çevirsə, o zaman doğrunu görə bilməsi mümkün olmaz. Allah Quranda belə insanların vəziyyətini xəbər vermişdir. "Zuxruf" surəsində mövzu ilə əlaqədar ayələrdə belə buyurulur:

**Kim mərhəmətli (Allah`ın) zikrindən üz döndərsə, Biz şeytanı ona calayarıq və o da ona yoldaş olar. Şübhəsiz ki, şeytanlar onları haqq yoldan sapdıracaq, onlar isə özlərinin haqq yolda olduqlarını güman edəcəklər. Nəhayət, o, hüzurumuza gəldikdə (yoldaşına) deyər: "Kaş ki, mənimlə sənin aranda məşriqlə məğrib (arasındakı) uzaqlıq qədər (məsafə) olaydı. Sən nə pis yoldaş imişsən!" (Onlara deyilər:) "Siz haqsızlıq etdiyinizə görə, bu gün əzaba şərik olmağınız sizə heç bir fayda verməz!" Sənmi karlara eşitdirəcəksən, yaxud korları və aşkar azğınlıq içində olanları doğru yola yönəldəcəksən? ("Zuxruf" surəsi, 36-40)**

Yuxarıdakı ayələrdə göründüyü kimi, Allah bu insanları kar və kor olaraq xarakterizə etmişdir. Şübhəsiz, burada bəhs edilən fiziki

mənada karlıq və korluq deyil. Allah bu insanların mənəvi baxımdan kor və kar olduqlarını, doğru yola edilən dəvəti eşitməzlikdən, həqiqətləri görməzlikdən gəldiklərini bildirmişdir. Qısası, bu insanlar ağıl və vicdanlarına tabe olmayaraq Allah`ın əmrlərini və hesab gününü qulaq ardı edir və bu şəkildə xilas ola biləcəklərini zənn edirlər. Halbuki, bu insanlar yalnız özlərini aldadırlar.

Bunu xüsusilə ifadə etməliyik: özlərini aldadan insanlar dünyada azlıq təşkil etmir. Quranda bildirildiyi kimi:

**...Lakin onların çoxu əsl həqiqəti bilmir və üz çevirərlər. ("Ənbiya" surəsi, 24)**

Və yenə başqa ayədə deyilir:

**... Lakin insanların çoxu Rəbbi ilə qarşılaşacağını inkar edir. ("Rum" surəsi, 8)**

Burada bəhs edilən şəxslərdən olmamaq üçün hər kəs bir daha düşünməli və özünü aldadanlardan olmamaq üçün səy göstərməlidir. Çünki dünyada olarkən doğrulara göz yumub özünü aldatmaq, axirətdə insana fayda deyil, böyük zərər verər.

## DÜŞÜNMƏDİYİ ÜÇÜN: "AĞLIMA GƏLMƏDİ, BİLMİRDİM", - DEYƏ BİLƏCƏYİNİ ZƏNN EDƏNLƏR

İnsanın həyatı boyu yaşadığı hər anı filmin kadrlarına bənzətsək, bir həyatın trilyonlarla kadrdan meydana gəldiyini düşünə bilərik. Bu trilyonlarla kadrdan hər biri insan üçün verilmiş fürsət deməkdir. İnsanın həyatındakı hər an həqiqətləri düşünməsi, doğruları görə bilməsi üçün hesab günündən əvvəl özünə verilmiş nemətdir. Bu neməti xeyirə istifadə edənlər, düşünərək dünya həyatının əsl mahiyyətini qavraya bilən insanlardır. Düşünməyənlər və həyatlarını qəflət içində davam etdirənlər isə bu fürsəti qiymətləndirə bilməzlər.

Şübhəsiz, düşünmək anlayışından hər kəs fərqli məna çıxara bilər. Bəzilərinin düşünməkdən anladığı gələcəyi düşünməkdir. Gələcəyə dair planlar qurmaq, sərmayə qoymaq düşünməyin göstəricisidir onlar üçün... Bəziləri isə düşünməyi keçmişin hesabatını aparmaq kimi görür. Dayanmadan keçmişdə etdiklərini, qazandıqlarını və ya itirdiklərini düşünür. Bəziləri isə yalnız bu günü düşünməyin, sabahı heç düşünməməyin faydalı olduğuna inanır. Bu, onun dünyagörüşüdür. Gündəlik yaşayır; müəyyən bir məqsədi və izlədiyi yolu da yoxdur. Səhər qalxdıqda naharda nə yeyəcəyini düşünür, işə gedərkən hansı vasitəyə minəcəyini, günorta yeməyinə kimlərlə gedəcəyini, axşam gələcək qonağa nə yemək bişirəcəyini, hansı şirkətin səhmlərini almasının qazanclı olacağını, ertəsi gün futbol matçına bilet tapıb-tapa bilməyəcəyini, məktəbdəki əyləncəyə kiminlə gedəcəyini düşünür… Qısası, insanların çoxunun zehni davamlı gündəlik, sadə və səthi düşüncələrlə doludur.

Budur, yer üzündəki yüz milyonlarla insan bu və buna bənzər düşüncələrlə ömrünü keçirir. Və görünən odur ki, insanlar belə mövzuların xaricindəki dərin mövzular üzərində düşünməyə çox yanaşmırlar. Ancaq burada düşünmək deməklə nəzərdə tutulan insanın həyatının məqsədini, ətrafındakı yaradılış dəlillərini, Allah`ın kainatda təcəlli edən möhtəşəm sənətini, ölümü, axirəti, hesab gününü düşünməsidir. Budur, insanların əksəriyyətinin nöqsan cəhəti də budur.

Düşünün! İllərlə təhsil alıb bioloq, mühəndis, həkim, professor olur, amma həyatında bir dəfə belə heç yox ikən necə var olduğunu, bunun da mütləq bir məqsədlə olduğunu düşünməzlər. Tezis hazırlayar, elmi iş müdafiə edər, assistent olar, müəllim olar, insanlara şəfa verən həkim və ya vəkil olarlar, amma nə üçün və necə yaradıldıqlarını, yaradılışlarını Allah`a borclu olduqlarını heç düşünməzlər. Kitablar yazar, televiziyalarda iclaslara gedər, hər mövzuda düşünüb

fikir bildirər, amma bir dəfə olsun ölümü və ondan sonra Allah`a verəcəkləri hesabı ağıllarına gətirməzlər. Budur, belə insanlar böyük ziyan içindədirlər. Çünki hər insan tez və ya gec ölümlə qarşılaşacaq və Allah`a olan qulluğundan sorğuya çəkiləcək. Düşünməmiş olmaq heç kimə bir fayda verməyəcək.

Hər insan Allah`ın varlığını, yaradılış məqsədini, necə qulluq etməsinin lazım olduğunu düşünüb anlaya biləcək şüur və vicdana malikdir. Necə ki, özləri üçün ən həyati mövzuları düşünməyən bu insanlar özlərinə sərfəli olan mövzunu çox yaxşı düşünə bilirlər. Məsələn, gəlir gətirən bir işdən söz gedirsə, pullarını necə qiymətləndirəcəklərini çox yaxşı bilirlər, bu haqda hər mərhələni düşünürlər. İşlərində çox çətin problemlərin öhdəsindən gələ bilir, hər detal üçün ayrı tədbir görürlər. Sahib olmaq istədikləri bir şey olduğunda bunun üçün çoxlu planlar qurub, bunları mərhələli şəkildə tətbiq edirlər. Qısası, insanlar dünyaya aid mənfəətləri olan mövzuları çox yaxşı düşünürlər.

Buna görə də axirətdə "düşünə bilmədim", "ağlıma gəlmədi" kimi bəhanələr Allah`ın diləməsi xaricində qəbul edilməyəcək.

Hər yeni doğan insan Allah`ın yaratdığı dünyaya addımını atır. Dünyada gözünü hara çevirirsə çevirsin, möhtəşəm yaradılış, qüsursuz dizayn və ən incə detalına qədər planlı sistemlərlə qarşılaşır. Qarşılaşdıqları üzərində düşünən insan bütün bunların yaradıldığını rahat qavraya bilər. Amma gündəlik həyatın və dünyəvi həvəslərin içində boğulmuş insan bu gördüklərinə təsadüf deyib keçir. Halbuki, bu insana sadə bir rəsm əsəri göstərsəniz və: "Bu, təsadüfən öz-özünə çəkilmiş ola bilərmi?" - desəniz: "Əlbəttə, xeyr, bunu çəkən bir sənətçi mütləq vardır", - deyər. Amma eyni insan ətrafındakı fövqəladə sənəti kimin və niyə yaratdığını düşünməkdən qaçır.

Eyni şəkildə, insanlar dünyadakı həyatlarının keçici olduğunu və əsl həyatın ölümün ardından başlayan axirətdə olduğunu da dü-

şünməkdən qaçırlar. Hər gün bir çox insanın ölümünə şahid olurlar, amma öz ölümlərini ağıllarına gətirmirlər. Heç ölməyəcəkmiş kimi dünyaya aid çoxlu planlar qurarkən ölümdən sonrası üçün hazırlıq görmürlər.

Bu insanlar özlərini bilə-bilə zərərə salırlar. Çünki insanın yaradılış məqsədini, Allah`ın bütün kainatda təcəlli edən sənətini, ölümü, axirəti, hesab gününü düşünməsi çox asandır. İnsanların zənn etdiyi kimi, bütün bu saydıqlarımızı düşünmək qarışıq və ya çətin iş deyil. Bunun üçün uzun araşdırmalar aparmağa, ali təhsil almağa, qəliz məlumatlar öyrənməyə də ehtiyac yoxdur.

Məsələn, hər gün gördüyü atmosferin insanın nəfəs ala biləcəyi şəkildə yaradılmış olması, hər gün səmada gördüyü quşun uçmaq üçün ehtiyac duyduğu ən uyğun qanad quruluşuna malik olması, ətrafında gördüyü rəngarəng dünya vicdanlı hər insanı Allah`ın möhtəşəm yaratmasını düşünməyə sövq edir. Eyni şəkildə, hər gün ətrafında yüzlərlə insan ölərkən insanın bir gün özünün də öləcəyini düşünə bilməməsi qeyri-mümkündür. Əgər insan vicdanının səsini dinləyib özünü boş işlərlə əyləndirməzsə və dünyəvi meyarlarla aldanmazsa, zehnində bu düşüncələri canlandırar.

Ancaq insan həqiqətlər üzərində dərin düşünüb qəflətə qapılmamaq üçün mütləq səy göstərməlidir. Unutmaq olmaz ki, hər insanın şeytan kimi bir düşməni vardır. Şeytan insanların düşünmələrini və beləliklə, həqiqətləri dərk edib Allah`a yönəlmələrini istəmədiyi üçün mütləq buna mane olmaq istər. Bunun üçün insana hiyləgərliklə təlqinlər etməyə başlayar. Bu mövzuda insanların ən çox təsirləndikləri təlqinlərdən biri olan düşünməyincə məsuliyyətlərdən azad olacaqları yalanı gəlir. Bu təlqinə qulaq asan insanlar özlərindən soruşduqda: “Ağlıma gəlmədi, bilmirdim, heç kim mənə söyləmədi”, - deyib xilas olacaqlarını zənn edirlər, amma özlərini aldadırlar.

Halbuki, insanlar özlərinə bu oyunu oynayarkən onlara şah damarından daha yaxın olan Allah etdikləri hər şeydən, görməzlikdən və anlamazlıqdan gəldikləri hər düşüncədən xəbərdardır. Dolayısilə, Allah`a qarşı olan məsuliyyətlərindən qaçan insan, əslində, özünün qurduğu tələyə özü düşür, düşünməməklə yalnız özünü aldatmış olur. Axirətə getdiyində isə qaçdığı həqiqətləri yaşayaraq görər və Allah`ın hüzurunda hesab verərkən “bilmirdim, ağlıma gəlmədi, düşünə bilmədim” kimi səmimiyyətsiz bəhanələrin heç bir faydasının olmadığını açıq-aydın anlayar.

**Elə bir gün ki, zalımlara üzrxahlıqları heç bir fayda verməyəcəkdir. (O gün) onları lənət və axirət yurdunun pis əzabı gözləyir. (“Mömin” surəsi, 52)**

Başqa ayələrdə də bu həqiqət xəbər verilmişdir:

**O gün zalımlara üzrləri heç bir fayda verməz və onların tövbə etmələri də istənilməz! (“Rum” surəsi, 57)**

## “BİLİRDİM, AMMA VAXTIM VƏ İMKANIM YOX İDİ”, - DEYƏRƏK ÖZÜNÜ ALDADANLAR

Allah Quranı bütün insanlara yol göstərici kitab olaraq göndərmişdir. Qiyamətə qədər bütün insanlar Quranda bildirilən əmrlərə tabe olmaqla, ibadətləri yerinə yetirməklə məsul sayılırlar. Allah`ın Quranda istisna olaraq bildirdiyi hallar xaricində hər insan ibadətləri yerinə yetirib yetirmədiyi haqqında din günü hesab verəcək. Buna görə, Allah`ın bildirdiyi istisnalar xaricində öz-özünə bəzi bəhanələr uydurараq Allah`a olan qulluq vəzifəsini yerinə yetirməyən insan özünü aldatmış olur. Bu açıq həqiqətə baxmayaraq, insanlar davamlı bəhanələr uydurur və Allah`a qarşı olan məsuliyyətlərini qulaq ardı edirlər. Məktəb illərində ayrı, iş həyatına baş-

ladıqda ayrı, evlənəndə, uşaqları olanda ayrı bəhanələr irəli sürürlər. Din əxlaqını yaşamağa səmimi niyyətləri olmadığı üçün müxtəlif mövzuları ibadətlərini yerinə yetirmələrinə mane olaraq görürlər. Ən böyük bəhanələri isə vaxtlarının və imkanlarının olmaması iddiasıdır.

Gündəlik həyatları boyunca insanlar bir çox işə rahatlıqla zaman ayırırlar. Xüsusilə hər hansı bir mənfəətləri olduğunda lazım gələrsə, başqa istəklərindən keçir, amma yenə də o iş üçün lazım olan zamanı nizamlayırlar. Eləcə də imkanları olmadıqda bütün maneələri qaldıran çarələri də çox tez düşünüb tapırlar. Ancaq ibadətlərdən söz düşəndə insanların çoxu eyni qərarlılığı göstərmir.

“Namaz qılmaq istəyirəm, amma vaxt tapa bilmirəm”, “işləyirəm, necə oruc tuta bilərəm”, “məktəbə gedirəm, dərsə hazırlaşmalıyam, ibadətə vaxt ayıra bilmərəm”, “bura bağ evidir, burada oruc tuta bilmərəm” kimi bəhanələr uyduran insanlara ətrafınızda tez-tez rast gəlmisiniz. Eyni şəkildə, “səbirli insan olmaq istəyirəm, amma hər şey bir-birinin ardınca olur”, “hirslənmək istəmirəm, amma mühit çox stresslidir” kimi bəhanələrlə çirkin əxlaq göstərən insanları çox görmüsünüz. Bu insanlar, əslində, Quran əxlaqını həyata keçirməyə səmimiyyətsiz yanaşırlar. Çünki bir az əvvəl də ifadə etdiyimiz kimi, insanlar dünyaya aid bir mənfəət ümid etdiklərində zaman və imkanları düşünmədən, lazım olduğunda hər cür çarəni taparaq istədikləri şeyi edirlər. Amma mövzu özlərini yaradan və yaşadan Allah`a qarşı yerinə yetirilməsi lazım olan məsuliyyət olduğu zaman dərhal qeyri-mümkünlüklərdən şikayət etməyə başlayırlar.

Bu mövzunun daha konkret şəkildə aydın ola bilməsi üçün belə bir nümunə verək. Bir insana gündə 1 saatını ayıraraq bir iş görməsi qarşılığında çoxlu miqdarda pul təklif edilsə, (məsələn, aylıq qazandığı maaşın 10 qatının ödənəcəyi deyilsə), bu adam imkanları necə

olursa olsun, dərhal təklifi qəbul edər. Üstəlik, bu insan bir tərəfdən universitet imtahanına hazırlaşa bilər və ya eyni zamanda, işləyə bilər. Lazım olsa, yuxusundan keçər, lazım olsa, özünə ayırdığı vaxtdan azaldar, amma zamanı problem olaraq görməz. Eyni şəkildə, bütün imkanlarını da dərhal bu işə uyğun hala gətirər. Bu, dünyadakı insanların çoxuna aid olan və inkar edilməsi qeyri-mümkün olan bir həqiqətdir.

Buna görə, əgər insan eyni qərarlılığı Allah`ın razılığı üçün göstərməzsə, bu, böyük bir səmimiyyətsizlik və vicdansızlıq olar. Üstəlik, insan etdiyi ibadətlər qarşılığında üç-beş manatla müqayisə edilməyəcək qədər qiymətli qazanca qovuşacaq, sonsuza qədər Allah`ın rəhmətini və cənnətini qazanacaq.

Amma insanların çoxu sahib olmağa çalışdıqları malların, pulların, daşıdıqları kredit kartlarının, yığdıqları dollarların, xoşlarına gələn evlərin, avtomobillərin, gözəl geyimlərin sehri ilə Quran əxlaqını bir kənara buraxır, axirəti unudur və dünyaya meyil edirlər. "Vaxtım yoxdur", "çox məşğulam", "görüləcək işlərim var", "işim var", "ideallarım var", "gələcəkdə edərəm" kimi sözlərlə özlərini aldadır, axirət qazancını təmin edən ibadətlərə yönəlməzlər. Allah`ın əmr etdiyi gözəl əxlaqı yaşamaz, namaz qılmaz, oruc tutmaz, Allah`ın özlərinə verdiklərindən ehtiyacı olanlara verməz, yalnız qazanc əldə etməyə çalışmaqla ömür sürərlər.

Allah dünyada özlərini aldatmaqla söylədikləri bəhanələrin qəbul ediləcəyini zənn edən və buna görə, ibadətlərini yerinə yetirməyən və ya durmadan təxirə salan insanların axirətdə qarşılaşacağı vəziyyəti bizə belə bildirmişdir:

> **O gün insana öncə etdiyi və sonraya qoyduğu nə varsa xəbər veriləcəkdir! Doğrusu, insan özü-özünə şahiddir! O, hər cür üzrxahlıq etsə də, (qəbul olunmaz)! ("Qiyamət" surəsi, 13-15)**

Buna görə, siz də diqqət yetirin, əsla bu insanlar kimi axirətdə etibarlı olmayacaq bəhanələri dünyada səbəb göstərib özünüzü aldatmayın. Ayədə bildirildiyi kimi, hər nə bəhanə olursa olsun, siz, əslində, bunun doğru olmadığını qavraya biləcək bəsirətə sahibsiniz. Əgər nəfsinizə uysanız, bunun hesabını Rəbbimiz olan Allah`a verə bilməzsiniz. Sizin onsuz da hazırda dünyada yaşama məqsədiniz Allah`a qulluq etməkdir. Etməli olduğunuz digər işlərin heç biri bundan daha önəmli və əhəmiyyətli deyil. Çünki əbədi qurtuluşunuz ancaq Allah`ın rəhmətini qazanmaqla mümkündür.

## "YORĞUNAM, XƏSTƏYƏM", - DEYƏRƏK ALLAH`A İBADƏT ETMƏYƏNLƏR

İnsanların din əxlaqını yaşamamaları üçün gətirdikləri bəhanələrdən biri də fiziki narahatlıqlardır. Məsələn, Allah`a ibadətdə istəksiz olan insan, əslində, xəstə olmadığı halda, "xəstəyəm, yorğunam" kimi bəhanələrlə özünü və ətrafındakıları aldadır və məsuliyyətlərini yerinə yetirmir. Halbuki, unutmamalıdır ki, Allah hər şeyi bilir. İnsanın heç bir hərəkəti, heç bir düşüncəsi Allah`dan gizli qalmaz. Ağlından keçən hər düşüncə, ürəyində hiss etdikləri və şüurlarındakı gizli olanları Allah bilir. Quranda xəbər verildiyi kimi:

**...Şübhəsiz Allah ürəklərdə olanları biləndir. ("Ali-İmran" surəsi, 119)**

Amma dindən və Quran əxlaqından uzaq insanlar özlərinə Allah`ın razılığını və cənnətini qazanma fürsəti verilmişkən fiziki narahatlıqlarını bəhanə edib ibadətlərini etməz, nəfslərinə tabe olarlar. Bu səmimiyyətsizliklərinin qarşılığını isə axirətdə acı əzab olaraq alarlar. Çünki Allah`ın əmrlərini yerinə yetirməmə haqqında qarşıya qoyduqları bəhanələrdə səmimiyyətsizdirlər. Həqiqətən, fiziki nara-

hatlıqları olsa belə, Quranda bu kimi hallarla əlaqədar bir çox asanlıq tanınmışdır. Məsələn, oruc tutmaq Allah`ın insanlara fərz buyurduğu ibadətlərdən biridir. Dolayısilə, insanlar Allah`ın bu hökmünü yerinə yetirməklə məsuldurlar. İnsanların bu ibadəti yerinə yetirə bilməyəcəkləri halları  isə yenə Allah ayəsində açıq şəkildə bildirmişdir:

**(Oruc) sayı müəyyən olan günlərdir. Artıq sizdən kim xəstə və ya səfərdə olsa, tutmadığı günlər qədər başqa günlərdə oruc tutmalıdır. Oruc tutmağa taqəti olmayanlar isə bir yoxsulu doyuracaq qədər fidyə verməlidirlər. Hər kəs könüllü xeyir iş görərsə, həm də fidyə verərsə, bu, onun üçün daha yaxşı olar. Bilsəniz, oruc tutmaq sizin üçün nə qədər xeyirlidir! ("Bəqərə" surəsi, 184)**

Bu ayədən göründüyü kimi, Allah səfərdə olanın, xəstənin olduqları vəziyyəti xatırlatmış və onlara oruc ibadətini yerinə yetirmə haqqında asanlıq göstərmişdir. Ayənin davamında da qulları üçün ən xeyirli olana diqqət çəkmişdir. Bir sonrakı ayəsində isə Allah yenə orucla əlaqədar bir asanlıq daha bildirmiş və qulları üçün daim asanlıq dilədiyini xatırlatmışdır:

**İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran (Quran) Ramazan ayında nazil edilmişdir. Bu aya  yetişən şəxslər oruc tutmalıdırlar; xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar. Allah sizin üçün çətinlik deyil, asanlıq istər ki, fövtə gedən günlərin orucunu tamamlayasınız və sizi düz yola yönəltməsinə görə Ona  şükür edəsiniz. ("Bəqərə" surəsi, 185)**

Bu nümunədən də aydın olduğu kimi, Allah`a səmimi olaraq iman edənlər üçün hər zaman asanlıq yolu mövcuddur. Çünki

Allah`ın dini çox asandır. Allah insanlara onların din əxlaqını yaşamalarında heç bir çətinlik verməmişdir. Allah insanların hansı şeylərdə çətinlik çəkəcəyini, hansı yükü qaldıra bilməyəcəyini ən yaxşı biləndir. Allah Quranda heç kimə gücü yetdiyindən artıq yük yükləməyəcəyini bildirmişdir:

**Allah istər ki, üzərinizdə olanı yüngülləşdirsin: (Çünki) insan zəif olaraq yaradılmışdır. ("Nisa" surəsi, 28)**

**Heç kimə gücü çatmayan işi yükləmərik; əlimizdə haqqı söyləməkdə olan bir kitab vardır və onlara zülm olunmaz. ("Muminun" surəsi, 62)**

İnsanların çoxu isə Allah`ın mərhəmətinə və lütfünə qarşılıq çox nankor olurlar. Dünyaya olan həvəs və bağlılıqlarına görə, ibadətlərini yerinə yetirməmək üçün davamlı olaraq başqa şərtləri bəhanə kimi irəli sürürlər. Əlbəttə, bunu etməklə yalnız özlərini aldadırlar. Çünki Quranda bildirildiyi kimi, Allah heç bir şeyə ehtiyacı olmayandır:

**Əgər inkar edəcək olsanız, şübhəsiz, Allah sizə əsla möhtac deyildir. Amma bəndələrinin küfr etməsi Ona xoş getməz. Əgər şükür etsəniz, sizin bu şükürünüz Ona xoş gələr. Heç bir günahkar başqasının günahını daşımaz. Sonra Rəbbinizin hüzuruna qayıdacaqsınız. O, sizə nə etdiklərinizi xəbər verəcəkdir. Həqiqətən, Allah ürəklərdə olanları biləndir! ("Zumər" surəsi, 7)**

Diqqət edin! Siz də Allah`a qulluq etməkdə bəhanələr irəli sürməyin. Əsla belə bir səmimiyyətsizliyə yaxınlaşmayın. Unutmayın, insan səmimiyyətsiz bəhanəni ağlından keçirərkən belə Allah bunu bilir. Siz bununla özünüzü aldadıb əyləndirərkən bir anda ölüm mələklərini yanınızda görsəniz, nə qədər çox istəsəniz də, Allah`a ibadət etmək üçün bir daha əsla geri qaytarılmazsınız. Allah Quranda

dünyada sağlam ikən ibadət etməkdən qaçan insanların hesab günü qarşılaşacaqları peşmançılığı və hiss edəcəkləri qorxunu belə bildirir:

**Ayağın üstündən (örtünün) açılacağı və onların səcdəyə çağırılacaqları gün, artıq güc çatdıra bilməzlər. Gözləri qorxudan və dəhşətdən bərəlmiş, özlərini də zillət qucaqlayıb-əhatə etmiş olacaq. Halbuki, onlar, sapsağlam ikən səcdəyə dəvət edilərdilər. ("Qələm" surəsi, 42-43)**

## "ALLAH MƏNİ BAĞIŞLAYAR", - DEYƏRƏK ÖZLƏRİNİ ALDADANLAR

İnsanların çoxu Allah`ın varlığını bilir və qəbul edirlər, amma Onun qüdrətini lazımi kimi təqdir etmirlər. Yanıldıqları mövzu Allah`ın varlığı deyil, Allah`ın isimləridir. Məsələn, Allah`ın qullarına qarşı çox lütfkar, bağışlayıcı və mərhəmətli olduğunu düşünsələr də, inkarçılardan intiqam alan, onlara əzab verən isimlərini düşünmürlər.

Allah`ı lazımi kimi təqdir edə bilməyən bu insanların ya Allah qorxusu yoxdur, ya da çox məhduddur. Bu da insanın axirəti baxımından çox təhlükəli vəziyyətdir. Çünki Allah qorxusu olmayan, etdiklərinin qarşılığında cəza görəcəyinə inanmayan insan hər cür pisliyi, zülmü rahatlıqla edə bilər. Allah`ın qadağan və haram etdiyi hər cür günahı edib sonra da "Allah bağışlayar" kimi reallıqdan uzaq düşüncəyə qapıla bilər. Buna görə də şeytan insanlara həmişə bu istiqamətdən yaxınlaşır və insanların özlərini "yəqin ki, bağışlanaram" düşüncəsi ilə aldatmalarına səbəb olur.

Din əxlaqından uzaq cəmiyyətlərdə insanlar həmişə bu yanlış fikirlə hərəkət edir və davamlı olaraq Allah`ın əmr və qadağalarını pozurlar. Namazlarını qılmayanlar, oruc tutmayanlar, ehtiyac içində

olan insanları qorumayanlar, xəsislik edərək mallarından zəkat verməyənlər, öz mənfəətləri üçün insanlara zülm edənlər, adam öldürənlər, oğurluq edənlər, başqalarının malını haqsızlıqla yeyənlər, yer üzündə fitnə-fəsad çıxaranlar, insanları əxlaqsızlığa sürükləyənlər həmişə "Allah bağışlayar" düşüncəsi ilə hərəkət edirlər. Halbuki, bu düşüncəyə sahib olan insanlar böyük yanlışlıq içindədirlər. Çünki Allah tövbələri qəbul edən və bağışlayandır, ancaq eyni zamanda, sonsuz ədaləti ilə hər bir əməlin əvəzini əskiksiz olaraq verəndir. Əlbəttə, yaxşılıq edənlərlə pislik edənlər bir tutulmayacaq, dünyada da hesab günündə də hər kəs layiq olduğu qarşılığı görəcək. Bu həqiqət Quranda belə bildirilir:

**Yoxsa günah qazananlar onları həyatda olduğu kimi, ölümlərindən sonra da iman gətirib yaxşı işlər görənlərlə eyni tutacağımızı güman edirlər? Nə pis mühakimə yürüdürlər! Allah göyləri və yeri ədalətlə yaratmışdır ki, hər kəs qazandığının əvəzini alsın. Belə ki, onlara heç bir haqsızlıq edilməyəcəkdir. ("Casiyə" surəsi, 21-22)**

**Allah`ın dərgahına qaytarılacağınız gündən qorxun! Sonra hər kəsə qazandığının əvəzi büsbütün veriləcək və onlara zülm olunmayacaqdır. ("Bəqərə" surəsi, 281)**

Ancaq bunu da qeyd etməliyik ki, əlbəttə, hər insan yaşadığı müddət ərzində səhv edə bilər və etdiyi günahlardan, etdiyi səhvlərdən ötrü peşman ola bilər. Çünki insan səhv etməyə meyilli varlıqdır, heç bir insan qüsursuz deyil. Buna görə, insan dünyada olduğu müddətdə bağışlanmaq üçün Allah`a tövbə edə bilər. Allah hər insana ölənə qədər tövbə etmə imkanı vermişdir. Amma Quranda hansı tövbənin səmimi tövbə olduğu və qəbul ediləcəyi də xəbər verilmişdir. Tövbənin şərtinin səmimiyyət olduğunu Allah aşağıdakı ayələri ilə bildirmişdir:

**Allah yanında yalnız o kəslərin tövbəsi qəbul olunar ki, onlar nadanlıq ucundan pis bir iş gördükdən sonra dərhal tövbə edərlər. Allah belələrinin tövbəsini qəbul edir! Həqiqətən, Allah biləndir, hikmət sahibidir! Günah işlər görməkdə davam edərək ölüm yetişən anda: "Mən indi tövbə etdim", - deyənlərin və kafir olaraq ölənlərin tövbəsi qəbul olunmaz. Biz onlar üçün şiddətli bir əzab hazırlamışıq! ("Nisa" surəsi, 17-18)**

O halda, insanın bir səhvə yol verdiyində buna əhəmiyyət verməyib: "Yəqin ki, bağışlanılaram", - deyərək düşünməməli, dərhal səmimi şəkildə Rəbbimizə yönəlib səhvini düzəltmək üçün tövbə etməlidir. Əhəmiyyətli olan insanın Allah`a qarşı səmimi qul olmasıdır. Ancaq bundan sonra Allah`ın bağışlamasını ümid edə bilər. Ancaq səmimiyyətsiz şəkildə hərəkət etməyə davam edərkən Allah`dan çəkinmədiyi və bağışlanma diləmədiyi halda, "Allah bağışlayar" kimi bir üslub və məntiq içində olanlar gözlədikləri nəticə ilə qarşılaşmaya bilərlər.

Buna görə diqqət edin! "Allah bağışlayar" məntiqi ilə özünüzü aldadıb bilə-bilə Allah`ın razı olmadığı həyatı yaşamayın. Əks təqdirdə, sonsuz həyatınızı öz əllərinizlə böyük təhlükəyə atmış olarsınız.

## "ONSUZ DA MƏN CƏNNƏTƏ GEDƏCƏYƏM" KİMİ DÜŞÜNƏNLƏR

Dini yaşamayan cəmiyyətlərdə insanların özlərini aldatdıqları mövzulardan biri də özlərinin cənnətə girməyə layiq olduqlarını düşünmələridir. Bu insanların çoxu ölümdən sonra həyatın olduğunu qəbul edirlər, lakin özlərinin mütləq cənnətə gedəcəklərini zənn etdiklərinə görə dini yaşamırlar. Bu cür düşünən insanların haradan belə qənaətə gəldikləri məlum deyil. Amma əksəriyyəti özünü digər

insanlarla müqayisə edərək yalnız yaxşı tərəflərini görür və yaxşı insan olduğu üçün cənnətə girməyə layiq olduğu qənaətinə gəlir. Ən təəccüblüsü də bu insanlar yaxşılıq anlayışını Qurana görə deyil, cahiliyyəyə uyğun qiymətləndirirlər. Allah`ın razı olduğu həyatı və əxlaqı deyil, yaşadıqları cəmiyyətin razı olduğu həyatı və əxlaqı seçirlər. Nəticədə, özlərini aldadaraq cənnətə girəcəklərini düşünürlər.

Heç şübhəsiz, Allah`dan cənnəti ümid etmək və istəmək gözəl şeydir. Bu istəyin səmimi olduğunun ən əhəmiyyətli göstəricilərindən biri insanın həyatının hər anında cənnətə yaraşan əxlaq göstərməsi və Allah`dan qorxub, çəkinərək hərəkət etməsidir. Əks halda, yəni Allah`ın razı olmadığı həyat tərzi sürərkən qulluq vəzifələrini yerinə yetirmədən cənnətə gedəcəyini düşünmək çox səmimiyyətsiz düşüncə olduğu kimi, bu düşüncə insanın özünü aldatmasından başqa bir şey deyil.

Bu düşüncəyə görə, insan həm Allah`a qulluq etmədən ömrünü öz nəfsinin istək və həvəslərinə görə keçirir, həm də axirətdə Allah`ın səmimi və saleh qulları üçün hazırladığı cənnətində, onların arasında, nemətlər içində olacağı düşüncəsinə malik olur. Bu, belə düşüncəyə sahib insanın Qurandan heç bir məlumatı olmadığını göstərir. Çünki Quran ayələrində bildirilən həqiqətləri dərk edən insan bu cür yalanlarla xilas olmağın mümkün olmadığını, bu yolla yalnız özünü aldatdığını çox yaxşı anlaya bilər.

Bir insan Quranda təsvir edilən cəhənnəm mühitini öyrənib dərk etdiyində bir an belə cəhənnəmdə olmağı gözə almaz. Nəinki cəhənnəmdə olmaq, cəhənnəmə yaxınlaşmaqdan belə şiddətlə qaçar. Çünki cəhənnəm insanın dünyada təsəvvür belə edə bilməyəcəyi çətinliklərlə, ağrı, əzab və çirkinliklərlə dolu məkandır. Allah Quranda cəhənnəm əzabının insanların yox olmaq istəyəcəkləri qədər şiddətli əzab olduğunu bildirmişdir:

**Əlləri boyunlarına bağlı vəziyyətdə dar bir yerə atıldıqları zaman özlərinə bəd dua edib ölümü diləyərlər. ("Furqan" surəsi, 13)**

**Onlar (Cəhənnəmin gözətçisi Malikə) deyəcəklər: "Ey Malik! Rəbbin bizi öldürsün." O: "Siz qalacaqsınız!" - deyə cavab verəcəkdir! ("Zuxruf" surəsi, 77)**

Allah`ı lazım olduğu kimi tanımayan və isimlərini təqdir edə bilməyən insanlar isə Onun inkarçılar üçün hazırladığı cəhənnəmin şiddətini də təqdir edə bilmirlər. Belə ki, cəhənnəmdən qorxub çəkinərək hərəkət etməyin yerinə etdikləri bəzi hərəkətlər üçün müəyyən müddət cəhənnəmə girməyi belə gözə ala bilirlər. Bu düşüncə cəmiyyətdə olduqca geniş yayılıb. Nəfsinin istək və həvəsləri uğrunda Allah`ın əmr və qadağalarını aşanlar "cəhənnəmdə cəzamı çəkər, sonra necə olsa cənnətə gedərəm" kimi bir inanca sahib olurlar. Bu insanlar dünya həyatından istədikləri kimi faydalanıb bunun qarşılığında cəhənnəmdə bir müddət qalacaqlarını, daha sonra bağışlanacaqlarını düşünürlər. Halbuki, heç bir insanın Allah`ın istəyi olmadan belə bir zəmanəti yoxdur.

Cəhənnəm sonsuza qədər var olacaq əzab yeridir. Allah rizasına görə yaşamayan hər insanı sonsuza qədər bu əzab yurdunda tuta bilər. "Necə olsa bir müddət qalar, sonra cəhənnəmdən çıxaram", - deyə düşünənlər Allah`dan lazımi şəkildə qorxmayan, Onun əzabını düşünüb qavramayan şəxslərdir. Belə ki, Allah bu zənn ilə hərəkət edən insanlardan və onların uğrayacaqları sondan Quranda bəhs etmişdir:

**Onlar: "Cəhənnəm odu bizə bir neçə gündən artıq əzab verməz", –deyərlər. De ki: "Allah`dan belə bir vəd almısınızmı? Allah heç vaxt Öz əhdindən dönməz. Yoxsa Allah`a qarşı bilmədiyinizi söyləyirsiniz?" Bəli, günah qazanan və qazandığı günahlarla əhatə olunan şəxslər**

**cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar. İman gətirənlər və yaxşı işlər görənlər isə behiştlikdirlər və orada əbədi olacaqlar. ("Bəqərə" surəsi, 80-82**

Bu mövzuda Quranda olan bir başqa ayə isə belədir:

**Bu onların: "Cəhənnəm odu bizə bir neçə gündən artıq toxunmaz!" –dediklərinə görədir. Onların dinləri barəsində uydurduqları özlərini aldadıb yoldan çıxartmışdır. ("Ali-İmran" surəsi, 24)**

Allah`ın yuxarıdakı ayələrdə bildirdiyi kimi, kimin nə qədər əzab çəkəcəyini, cəhənnəmdə kimin nə qədər qalacağını ancaq Allah bilər. Dünyada olarkən: "Cəzamı çəkib çıxaram", - deyərək özlərini aldadan bu insanların cəhənnəmdə yaşayacaqları çarəsizlik və çaşqınlığı isə Allah ayələrində belə bildirir:

**(Allah) buyuracaq: "Allah`ın istədiyi istisna olmaqla, siz orada həmişəlik qalacaqsınız!" Şübhəsiz ki, Rəbbin hikmət, elm sahibidir! ("Ənam" surəsi, 128)**

**Fasiqlərə gəldikdə isə, onların məskəni cəhənnəm odudur. Onlar hər dəfə oddan çıxmaq istədikdə yenə ora qaytarılacaq və onlara: "Dadın yalan hesab etdiyiniz cəhənnəm odunun əzabını!" – deyiləcəkdir. ("Səcdə" surəsi, 20)**

**Atəşdən çıxmaq istəyərlər, lakin heç cür oradan çıxa bilməzlər. Onlar əbədi əzaba düçar olanlardır! ("Maidə" surəsi, 37)**

Əgər yuxarıdakı ayələrdə bəhs edilən şəxslərdən olmaq istəmirsinizsə, bu mövzu üzərində bir daha düşünün. Və əsla "necə olsa cənnətə gedərəm", "cəzamı çəkib cəhənnəmdən çıxaram" kimi boş zənlərlə özünüzü aldatmayın. Özünüzü cahiliyyə prinsipləri ilə deyil, Quran ayələri ilə qiymətləndirin. Allah Quranda cənnətinə

yaraşan bir insanın necə olmasının lazım olduğunu bütün detalları ilə bildirmişdir. Bunun xaricində heç bir fikir bu mövzuda hökm verə bilməz. Unutmayın! Heç kimin cənnətə gedəcəyi zəmanət altında deyil. Əksinə, dünyada imtahanı davam edən hər insan üçün cəhənnəmə getmə təhlükəsi mövcuddur. Allah`ın ən səmimi və vicdanlı qulları olan peyğəmbərlərin belə bu mövzuda Allah`a dua etdiklərinə Quranda belə diqqət çəkilir:

**Göyləri və yeri yaradan, dünyada və axirətdə mənim ixtiyar sahibim Sənsən. Mənim canımı müsəlman olaraq al və məni əməlisalehlərə qovuşdur! ("Yusif" surəsi, 101)**

Belə olan halda, heç kim özünü aldatmasın. Allah`a boyun əyib təslim olmadığı və Rəbbimizi razı etmədiyi müddət ərzində heç kim cənnətin qapılarından içəri girə bilməyəcək. Allah bir ayəsində bunun qeyri-mümkün olduğunu insanlara çox açıq bir örnəklə bildirmişdir:

**Ayələrimizi yalan hesab edənlərə və onlara təkəbbürlə yanaşanlara göyün qapıları açılmaz və kəndir iynənin gözündən keçməyənə qədər onlar da cənnətə daxil ola bilməzlər. Biz günahkarlara belə cəza veririk! ("Əraf" surəsi, 40)**

## "HAMI ELƏ DÜŞÜNÜRDÜ, MƏN DƏ ONLARA TABE OLMAĞA MƏCBUR OLDUM", - DEYƏNLƏR...

İnsanların yanıldığı bir çox mövzuda cəmiyyətin psixologiyasının təsiri böyükdür. Xüsusilə də din əxlaqından uzaq yaşayan cəmiyyətlərdə səhv və ya pis də olsa çoxluğun mənimsədiyi düşüncə, yaxud davranışlar insanlar tərəfindən də mənimsənməyə başlanır.

İnsan, əslində, vicdani olaraq doğrunu bilməsinə baxmayaraq, sırf çoxluğun təsiri ilə "bu qədər insanın bir bildiyi var" kimi yanlış fikirlə vicdanını susdurur və onlara tabe olur. Halbuki, çoxluq heç bir mövzuda yol göstərici ola bilməz. İnsanlara doğrunu yanlışdan ayırd etmələri üçün endirilmiş olan yalnız Qurandır. Quranda olmayan bəzi meyarları qəbul edənlər və ona tabe olanlar  çox böyük yanlışlığa düşürlər. Belə ki, Allah Quranda insanları çoxluğun arxasınca getməmələri üçün açıq şəkildə xəbərdar etmişdir.

**Yer üzündə olanların çoxuna itaət etsən, onlar səni Allah`ın yolundan azdırarlar. Onlar ancaq zənnə uyar və ancaq yalan danışarlar! ("Ənam" surəsi, 116)**

Çoxluğa uyğun hərəkət etməyin kökündə "hər kəs elə düşünürdü, mən də onlar kimi olmağa məcbur olduğumu düşündüm" kimi aciz məntiq yatır. Yəni hər hansı bir insan doğru bildiyindən imtina edib çoxluğa tabe olduğu təqdirdə insanların verəcəyi reaksiyadan, onlar tərəfindən qınanmaqdan çəkinir. Bu, gənclər arasında çox yayılmış məntiqdir. Sırf buna görə, ibadətlərini yerinə yetirməyən, bir ömür boyu Allah`ın razılığını unudub kütlənin razılığı üçün yaşayan insanlar var. Halbuki, insan yüzlərlə, minlərlə insanın deyil, yalnız Allah`ın razılığını axtarmağa cavabdehdir. Eyni şəkildə, insan kimin nə düşünəcəyini fikirləşib və buna görə hərəkət etmək məcburiyyətində də deyil. Allah Quranla insanları hər cür asılılıqdan azadlığa qovuşdurmuşdur. İnsan yalnız Allah`a hesab verəcək və Qurana tabe olub-olmadığından sorğu-sual ediləcəkdir.

Belə ki, bu həqiqəti, əslində, hər insan çox yaxşı bilir. Ancaq bir çox insan bu bəhanəni irəli sürərək özünü aldadır və ətrafındakıları da aldada biləcəyini düşünür. Amma axirətdə arxalarından getdikləri insan çoxluğu özlərini əzabdan xilas edə bilmədikləri kimi, onu da xilas edə bilməzlər. Allah Quranda bu şəxslərin vəziyyətlərini belə xəbər verir:

**Yox, əgər o, bir son qoymasa, and olsun ki, onu kəkilindən yapışıb sürükləyəcəyik. Özü də yalançı, günahkar kəkilindən! Qoy, o, özünün bütün tərəfdarlarını çağırsın! Biz də zəbaniləri çağıracağıq! Yox, Ona boyun əymə, səcdə et və yaxınlaş! ("Ələq" surəsi, 15-19)**

Bu vəziyyətdəki bir insan dünyada olarkən ətrafındakı insanlara görə Allah`ın razılığını qulaq ardı etmiş, hesab günü ilə qarşılaşacağını heç ağlına gətirməmişdir. İndi çox əhəmiyyət verdiyi və uğrunda Allah`ın razılığını qulaq ardı etdiyi o dindən uzaq çoxluqla birlikdə cəhənnəmə girəcək. O halda, siz bu həqiqəti bilə-bilə əsla bəhanə edib özünüzü aldatmayın və din əxlaqından uzaqlaşmayın. Heç bir mövzuda çoxluğa tabe olmaq məcburiyyətində deyilsiniz. Qurana görə doğru bildiyinizdən əsla imtina etməyin və tək başınıza da olsanız, haqqı yaşayın. Unutmayın, Allah`ın razılığını axtarmaqda göstərdiyiniz səbir sonsuza qədər böyük rəhmət içində yaşamağınıza səbəb olacaq.

## "ELM ADAMLARI DİNİ İNKAR EDİRDİ, ONLARA İNANDIM", - DEYƏRƏK ÖZÜNÜ ALDADANLAR

İnsanların dini inkar etmək üçün irəli sürdükləri bəhanələrdən biri də Allah`ı və axirət gününü inkar edən elm adamlarının varlığıdır.

Xüsusilə içində yaşadığımız dövr elmin ciddi şəkildə inkişaf etdiyi, elmi baxımdan tarix boyu yaşanmamış bir çox nailiyyətin əldə edildiyi dövrdür. Elm və texnologiyanın təmin etdiyi imkanlarla kainatdakı nizam və dizayn görünür, Allah`ın yaratdığı sistemlərin qüsursuzluğu aydın olur, canlıların sahib olduğu bir çox yaradılış həqiqəti daha yaxından tanınır, Quranın möcüzələri bir-bir kəşf edilir.

Ancaq bir də elmdən öz dünyəvi mənfəətləri üçün istifadə edən, inkarçı zehniyyətlərini onunla dəstəkləməyə çalışan şəxslər var. Bu şəxslər elm adamı adı altında ortaya çıxır, ancaq elmlərindən gerçəkləri araşdırıb tapmaq üçün deyil, öz ideologiyalarını dəstəkləmək üçün istifadə edirlər. Bu şəxslər kainatdakı və canlılardakı qüsursuz yaradılışı və möcüzəvi xüsusiyyətləri görməzlikdən gəlib hər şeyin təsadüflər nəticəsində özbaşına var olduğu kimi əsli olmayan iddia ilə ortaya çıxırlar. Bu insanların məqsədi Allah`ın varlığını inkar etmək və cəmiyyətlərə də inkar etdirməkdir. Bu yolla heç kimə qarşı məsuliyyət daşımayan, başıboş fərdlərdən ibarət olan hər cür əxlaqsızlığın geniş şəkildə yaşandığı cəmiyyətlər meydana gətirmək istəyirlər.

İnsanların çoxu elm adı altında öz fikirlərini yaymağa çalışan bu şəxslərdən təsirlənir. Bütün elm adamları hər şeyi bilən, hər mövzuda ən doğru diaqnozu qoya bilən, ən ağıllı və zəkalı şəxslər olaraq qəbul edilirlər. Halbuki, bu səhv anlayışdır. Əlbəttə, elmi doğru məqsədlə istifadə edən bir çox qiymətli elm adamları da var. Amma elmin əhatəsində dünyəvi mənfəətləri üçün həqiqətləri gizlədən, insanları səhv yola aparan şəxslər də mövcuddur. Buna görə, bütün insanlar kimi elm adamları da sahib olduqları məlumatların, onlara verilən adların çoxluğuna görə deyil, sahib olduqları məlumatları yaradılış məqsədlərinə uyğun istifadə edib-etmədiklərinə, Allah`ın razı olacağı şəkildə yaşayıb-yaşamadıqlarına görə qiymətləndirilməlidirlər. Allah`a iman edən insan üçün doğru olan budur.

Daha əvvəl də ifadə etdiyimiz kimi, Allah Quranda insanların çoxluğa tabe olmalarının özlərinə zərər gətirəcəyinə, bu çoxluğun inkarda davamlı olacağına diqqət çəkmişdir. Belə olan halda, bir insanın başqalarının sözlərini araşdırmadan, detallarını öyrənmədən qəbul etməsi deyil, öz ağlı və vicdanı ilə qiymətləndirməsi və buradan doğru nəticəni çıxarması vacibdir. Allah bir ayəsində: **"Bilmədi-**

**yin bir şeyin ardınca getmə. Çünki qulaq, göz və ürək bunların** hamısı sorğu-sual olunacaqdır" ("İsra" surəsi, 36) - deyə əmr edir. Buna görə də bu, insanın özünə deyilən hər şeyi birbaşa qəbul edərək özünü aldatmasından başqa bir şey deyil.

İnsan Allah`ın özünə əmr etdiyi şəkildə haqqa tabe olmaqla və insanlara da haqqı tövsiyə etməklə cavabdehdir. Həqiqət belə olduğu halda, bəhanələr irəli sürməsi, özünü və ətrafındakıları aldadacaq bəhanələrlə ortaya çıxması axirətdə heç bir fayda verməyəcək. Allah insanları inkara dəvət edən və onlara yalan vədlər verən şəxslərin hər zaman olacağını Quranda xəbər vermişdir. Allah bu şəxslərin də, onlara tabe olanların da müsibətlərlə qarşılaşacaqlarını belə xatırlatmışdır:

> **İnkar edənlər iman edənlərə dedilər: "Siz bizim yolumuza tabe olun, günahlarınızı biz boynumuza götürərik". Halbuki, onların heç bir günahını öz boyunlarına götürməzlər. Həqiqətən, onlar yalançıdırlar. Şübhəsiz ki, onlar həm öz günahlarına, həm də öz günahları ilə yanaşı, daha neçə-neçə günahlarla yüklənəcəklər. Qiyamət günü onlar uydurduqları yalana görə mütləq sorğu-sual olunacaqlar. ("Ənkəbut" surəsi, 12-13)**

# ÖZÜNÜ ALDADANLARIN SONU

Hər insan eyni vicdana malikdir. Vicdansız insanları yüksək vicdanlı insanlardan fərqləndirən bildikləri həqiqətlərə gözlərini yummaları və qulaqlarını qapamalarıdır.

Allah`ın Quranda təriflədiyi peyğəmbər olan hz. İbrahim kimi həyatlarının hər anında vicdanlarının səsinə qulaq asanlar gözəl və dinc həyat yaşayarlar. Çünki bu insanlar doğruya tabe olmanın və axirətdə gözəl qarşılığı ümid etmənin verdiyi mənəvi rahatlıq içindədirlər. Vicdanlarına qulaq asmayan insanlara isə bunun tam əksi aiddir. Bu insanlar doğru olanı tətbiq etməməyin, haqq olana tabe olmamağın və bunun qarşılığında da böyük cəza alacaqlarını bilməyin gizli çətinliyini, yəni vicdan əzabını içlərində yaşayırlar. Hara getsələr də, nə etsələr də, bu çətinlik onları rahat buraxmaz. Dünyanın ən böyük sərvətinə də sahib olsalar da, ölkə-ölkə gəzsələr də, üstlərindəki bu mənəvi təzyiqdən xilas ola bilməzlər.

Əslində, vicdan əzabı etdiyi səhvdən dönməsi üçün insana Allah`dan xəbərdarlıqdır. Bu möminlər üçün böyük nemət və tövbə edib davranışlarını düzəltmələrinə təşviqdir. Amma din əxlaqından və səmimiyyətdən uzaq insanlar üçün sözün əsl mənasında bir əzabdır. Onlar yaşadıqları bu çətinliyin səbəbini bildikləri halda, davranışlarını düzəltmək əvəzinə bunun səbəbini anlamazlıqdan gəlirlər. Buna görə də həyatları boyunca həqiqi mənada xoşbəxt və rahat ola bilmirlər.

Yuxarıda bəhs edilən həqiqətləri bildikləri halda, görməzlikdən

və anlamazlıqdan gələrək özlərini aldadan insanlar ömür boyu bu mənəvi əzab içində yaşayırlar. Vicdanları əzab içində olarkən özlərinə saxta xoşbəxtliklər yaratmağa çalışır, ancaq bacara bilmirlər. Çünki əzab içindəki vicdanı rahatlaşdırmağın yeganə yolu Allah`a tövbə edib buna səbəb olan səhvi tərk etməkdir.

Əgər siz də vicdanınızı dinləməyin yerinə müxtəlif bəhanələrlə özünüzü aldadıb nəfsinizin istək və həvəslərinə tabe olsanız, əsla qaça bilməyəcəyiniz mənəvi əzabın içində yaşayarsınız. Ancaq özünüzü aldadıb əbədi həyatınız boyu yaşayacağınız çətinlik yalnız dünyadakı çətinliklərlə məhdud qalmaz. Çünki Allah dünyada özlərini aldadaraq hesab gününü qulaq ardı edən insanların axirətdə də böyük əzab və peşmançılıqla qarşılaşacağını xəbər vermişdir. Belə ki, Quranda hesab günü aldanma günü olaraq da xatırlanır:

**Allah`ın sizi toplayacağı gün – məhz o gün qarşılıqlı aldanma günüdür! Kim Allah`a iman gətirib yaxşı əməllər etsə, (Allah) onun günahlarının üstünü örtər və onu altından çaylar axan əbədi qalacaqları cənnətlərə daxil edər. Bu, böyük xoşbəxtlik və qurtuluşdur! İnkarçı olub ayələrimizi yalan sayanlara gəldikdə isə onlar cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar. Ora necə də pis məskəndir! ("Təğabün" surəsi, 9-10)**

Ayələrdə bildirilən aldanma günü insanın ölümü ilə birlikdə başlayar, dirilişlə və hesabla davam edər, inkarçıların əbədi yurdları olan cəhənnəmə göndərilməsi ilə sona çatar. Dünyada olarkən özlərini müxtəlif bəhanələrlə aldadan, şeytanın vədlərinə aldanan insanların cəhənnəmdə qarşılaşacaqları hadisələrdən bəziləri Quranda belə xəbər verilmişdir:

**Ölüm, həqiqətən, gələcəkdir. Bu, sənin qorxub qaçdığın şeydir! Sur çalınacaqdır. Bu vəd olunmuş gündür! Hər bir kəs bir sürüyən və bir də şahidlə gələcəkdir. (Ona belə de-**

**yiləcəkdir:) “Sən bundan qafil idin. Artıq bu gün gözündən pərdəni götürdük. Sən bu gün sərrast görürsən!” Yoldaşı deyəcəkdir: “Bu yanımdakı hazırdır!” (Allah buyuracaqdır:) “Atın cəhənnəmə hər bir inadcıl kafiri; xeyirə mane olanı, həddi aşanı, şəkk edəni! O kimsəni ki, Allah`la yanaşı, özünə başqa bir tanrı qəbul etdi. Atın onu şiddətli əzabın içinə!” Yoldaşı deyəcəkdir: “Ey Rəbbimiz! Onu mən azdırmadım. Fəqət o, özü haqq yoldan çox azmışdı!” (Allah) buyuracaqdır: “Mənim hüzurumda mübahisə etməyin. Mən sizə bu əzabı bildirmişdim. Mənim hüzurumda söz güləşdirməyin. Mən bəndələrə zülm edən deyiləm!” O gün Biz cəhənnəmə: “Doldunmu?” – deyəcək, o isə: “Yenə varmı?” – deyə cavab verəcəkdir. (“Qaf” surəsi, 19-30)**

# ÖZÜNÜ ALDATMAĞIN YERİNƏ SƏMİMİYYƏT

Sonsuzluq içində insan yalnız bir dəfə sınanır. İnsanın sonsuz həyatını bu sınaq müddəti içindəki davranışları təyin edir. Bu qısa, amma çox əhəmiyyətli müddəti də insan özünü aldatmaqla keçirsə, imtahanı keçə bilməz. Əsl həqiqət də budur. İnsan özünü aldatmaqla nə həqiqəti dəyişdirə bilər, nə də məsuliyyətdən qaça bilər.

Tam əksinə, insanın dünyada həqiqətlərdən qaçması yalnız öz əleyhinədir. Bu insanın vicdanını susdurmaqla özünü aldatdığı, müxtəlif bəhanə və həqiqətlərlə rahatlaşdırmağa çalışdığı hər an, əslində, böyük itkidir. Axirətdə isə bu ağılsızlığı səbəbindən Allah`ın istəyi xaricində əsla bərpası mümkün olmayan peşmançılıq yaşayacaq.

Bu vəziyyətdə insan nəinki özünü aldatmalı, son dərəcə açıq şüur və diqqətlə qulluq vəzifəsini yerinə yetirməlidir. Bu da insanın hər an vicdanının səsinə qulaq asması və Allah`ın kitabına əməl etməsi ilə mümkündür. Səmimi olaraq iman edən insan üçün başqa yol yoxdur. İnsanın dünyada yaşadığı müddətdə hər keçən saniyə ölümə və hesab gününə bir az daha yaxınlaşdığını, etdiyi hər davranışdan, ağlından keçən hər düşüncədən Allah`ın xəbərdar olduğunu və bunlardan məsul tutulacağını düşünməsi ona ən gözəl və xeyirli olan yoldur.

Diqqət edin, Allah`a qarşı səmimi olmağa yönəldilən bu yol insan üçün ən asan olanıdır. Bir anlıq düşünməyin və qərar almağın ardından insan bütün həyatı boyu bu qərarın gətirdiyi şüur açıqlığı ilə ya-

şaya bilir. Bu şüur açıqlığını qazandığında isə heç bir mövzuda özünü aldadıb özünü əbədi zərərə salmaz.

Unutmayın! Özünü aldatmaq insan üçün odla oynamaq kimidir. İnsan bu şəkildə vaxtını keçirərkən və tamamilə dünyaya aludə olmuşkən bir anda canını təslim almağa gələn mələkləri yanında görə bilər. Mələklər canını bir ayənin ifadəsi ilə ağrı-acı ilə alarkən, görəsən, eyni oyunu və özünü aldatmanı davam etdirə biləcəkmi?

"Nə yaxşı etdim, dünyadakı həyatım boyunca yedim, içdim, gəzdim, əyləndim, məsuliyyətlərimi, qulluq vəzifəmi qulaq ardı etdim, heç düşünmədim", - deyə biləcəkdirmi? Şübhəsiz ki, xeyr. Bu, ən qafil insanın belə ağlından keçirə bilməyəcəyi düşüncədir. Tam əksinə, o anda şiddətli qorxu, dəhşət və həyəcan içində olacaq. Amma bu, hələ başlanğıcdır, cəhənnəmin qapılarından içəri girdiyində bu qorxu və peşmançılıq dözülməz ölçülərə çatacaq, ruhu sonsuz uçuruma sürüklənəcəkdir.

Bu, bütün insanların ağlından bir an belə çıxarmamalı olduğu həqiqətdir. Allah bu həqiqəti ayələrində xatırladarkən özlərini aldadan insanların peşmançılıq və çarəsizliyini də belə bildirir:

**Əzab sizə gəlməmişdən əvvəl Rəbbinizə dönün və Ona təslim olun. Sonra sizə heç bir kömək olunmaz. Rəbbinizdən sizə endirilənin ən gözəlinə tabe olun; özünüz də bilmədən, qəfil əzab sizə gəlib çatmadan əvvəl. Adamın (əzab içində) belə deyəcəyi (gün): "Allah`a itaət barəsində etdiyim təqsirlərə görə vay halıma! Həqiqətən, mən (Allah`ın dinini) məsxərəyə qoyanlardan idim!" Yaxud: "Əgər Allah məni doğru yola yönəltsəydi, mən mütləq müttəqilərdən olardım!" – deyəcəyi və ya əzabı gördüyü zaman: "Kaş bir dəfə də (dünyaya) qayıda bilsəydim; yaxşı işlər görənlərdən olardım!" – deyəcəyi gündən çəkinin! ("Zumər" surəsi, 54-58)**

# ƏLAVƏ BÖLMƏ TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən

digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

1) Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

2) Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

3)Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında  həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir  müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil

hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

> "Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

> "Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu

təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

> "Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki,

bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-

birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel “Scientific American” jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

> “Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir”. *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: “Növlərin mənşəyi, təbii seleksiya yolu ilə...”

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan ma-

rallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. *(B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)*

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

> “Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər”. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı

təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

### Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı

və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

> "Əgər nəzəriyyəm doğrudursa, növləri bir-birilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

> "Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına

baxmayaraq, bu həqiqəti belə etiraf edir:

> "Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". *(Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)*

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

> "Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu

gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

- *Australopithecus*
- *Homo habilis*
- *Homo erectus*
- *Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "Australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus* > *homo habilis* > *homo erectus* > *homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha

sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

> “Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

> "Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi

elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən

professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və

dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoni-

yaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik im-

pulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu

açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

> "Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların**

**ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) “Siz atın”, - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: “Əsanı tulla!” - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**“Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar”. *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən**
**başqa bizdə heç bir bilik yoxdur!**
**Həqiqətən, Sən Bilənsən,**
**Müdriksən!  (Bəqərə surəsi, 32)**